AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.com
www.olimpnews.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 38 (1498), 30 noyabr - 6 dekabr 2021-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

## “Olimpiya dünyası” qəzetinin redaksiyasına

Milli Olimpiya Komitəsinin təsis etdiyi “Olimpiya dünyası” qəzetinin 20 ili tamam olur. MOK-un rəsmi mətbuat orqanı olan və ölkəmizdə idmanın, Olimpiya hərəkatının inkişafını, Olimpiya ideallarının təbliğini təmin etmək məqsədilə yaradılan bu qəzet ölkəmizin idman mətbuatı ailəsində sayılıb-seçilən və səmərəli fəaliyyət göstərən idman nəşrlərindən biridir. Qəzet 20 illik fəaliyyəti dövründə həm ölkəmizdə, həm də dünya idmanında baş verən bütün yenilikləri, atletlərimizin uğurlarını, ölkəmizdə idmana və Olimpiya hərəkatına dövlət səviyyəsində göstərilən diqqət və qayğı barədə məlumatları geniş oxucu kütləsinə çatdırır. İnanıram ki, bu qəzet bundan sonra da idmanın və Olimpiya hərəkatının təbliği istiqamətində idman tariximizin yazılı mənbələrindən biri kimi uğurla fəaliyyət göstərəcəkdir.

“Olimpiya dünyası” qəzetinin yaradıcı kollektivini, idman ictimaiyyətini və çoxsaylı oxucuları 20 illik yubiley münasibətilə təbrik edir, yeni yaradıcılıq uğurları arzulayıram.

*Çingiz Hüseynzadə,*
*MOK-un vitse-prezidenti*

## “Olimpiya dünyası” qəzetinin kollektivinə

Azərbaycanın idman mediasında aparıcı mövqedə olan qəzetinizin 20 illiyi münasibətilə hamınızı təbrik edirəm. “Olimpiya dünyası” qəzeti Azərbaycanda idmanın və Olimpiya hərəkatının təbliğində özünəməxsus yeri və rolu olan nəşrdir. Bu qəzet idmançılarımızın uğurlarını çoxsaylı oxucularına çatdırmaqla yanaşı, ölkəmizdə kütləvi bədən tərbiyəsi və idmanın təbliğində də təqdirəlayiq rol oynayır.

Bir daha kollektivinizi və oxucularınızı təbrik edir, yeni-yeni uğurlar arzulayıram.

*Fərid Qayıbov,*
*Azərbaycan Respublikasının gənclər və idman naziri*

## “Olimpiya dünyası” qəzetinin redaksiyasına

İdman ölkəsi olan Azərbaycanda bu sahə ilə bağlı hadisə və proseslərin dinamikliyi onlara daha dolğun reaksiya verilməsini günün tələbinə çevirib. Mövcud xüsusda formalaşmış rəqabət mühitinin şərtlərini qarşılayaraq, ayaqda qalmaq hər kütləvi informasiya vasitəsinə müəssər olmur. “Olimpiya dünyası” qəzeti bunu bacarıb. O, nəinki ayaqda qalmağı bacarıb, eyni zamanda özünü daha da təkmilləşdirib, idman jurnalistikasında özünəməxsus dəst-xətt yaratmağa müvəffəq olub.

20 yaşını qeyd edən qəzet respublikamızda Olimpiya hərəkatının inkişafını, misilsiz uğurlarını yüksək peşəkarlıqla işıqlandıran nümunəvi media orqanı kimi idman ictimaiyyətinin, eləcə də çoxsaylı oxucuların sevimlisidir.

“Olimpiya dünyası”nda jurnalistikamızın təməl prinsiplərinə hörmət, axtarışlar və tapıntılarla dolu yaradıcı mühit var. Heç şübhəsiz ki, bu mühitin formalaşması ötən 20 ilin ən böyük uğurlarından biridir. Əminliklə onu demək mümkündür ki, ötən 20 ildə qazanılmış təcrübə, keçilmiş yol qarşıdakı daha böyük rəqəmli ələmətdar tarixlər üçün etibarlı bazadır.

“Olimpiya dünyası” qəzeti kollektivini nəşrin fəaliyyətə başlamasının 20 illiyi münasibətilə təbrik etməkdən məmnunluq duyur, kollektivin hər bir üzvünə möhkəm cansağlığı, zehin açıqlığı, bol-bol yaradıcılıq uğurları arzulayırıq.

*Əflatun Amaşov,*
*Azərbaycan Mətbuat Şurasının sədri*

## Gimnastımız 28-ci dünya yaş qrupları yarışlarında qızıl medal qazandı

Bakıda keçirilən batut gimnastikası üzrə 28-ci dünya yaş qrupları yarışlarına yekun vurulub. Milli Gimnastika Arenasında keçirilən yarışda 32 ölkədən 621 idmançı mübarizə aparıb. Ölkəmiz yarışda 15 gimnastla təmsil olunub. Gimnastlar batut, tamblinq, ikili mini-batut üzrə yarışlarda 11-12, 13-14, 15-16 və 17-21 yaş kateqoriyalarında çıxış ediblər. Turnirdə gimnastlar batut üzərində fərdi və sinxron tullanışlar, tamblinq və ikili minibatut üzrə proqramlarda mübarizə aparıblar. Bundan əlavə, komanda hesabında da qaliblər müəyyənləşib.

Komandamız dörd gün davam edən yarışı bir qızıl medalla başa vurub. Ölkəmizə yeganə medalı Maqsud Maqsudov qazandırıb. 13-14 yaş kateqoriyasında batut gimnastikası yarışlarında fərdi proqram üzrə mübarizə aparan təmsilçimiz finalda 56,200 xal toplayıb.

## Milli Olimpiya Komitəsinin üç üzvü AOK-un müxtəlif komissiyalarının üzvü seçilib

Avropa Olimpiya Komitələrinin (AOK) Slovakiyanın Şamorin şəhərində keçirilən 41-ci seminarında bir sıra mühüm məsələlər müzakirə edilib. Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) marketinq departamentinin rəhbəri Mehman Kərimovun iştirak etdiyi seminarda AOK-un icraiyyə komitəsinin iclası da keçirilib. Belə ki, icraiyyə komitəsi növbəti dövr üçün doqquz komissiya və iki işçi qrupun yeni tərkibini təsdiqləyib. Qərara əsasən, Azərbaycan Milli Olimpiya Komitəsinin üç əməkdaşı - Azər Əliyev Avropa Gənclər Yay Olimpiya Festivalının, Mehman Kərimov marketinq, Anar Bağırov isə Avropa İttifaqı və Beynəlxalq Əlaqələr komissiyalarının yeni üzvləri olaraq təsdiq ediliblər. MOK-un üç üzvünün AOK-un müxtəlif komissiyalarına üzv seçilməsi qurumun son 29 illik tarixində bir ilkdir.

Seminar müddətində qitə ölkələrinin MOK-ları Tokio Yay Olimpiya Oyunlarının yekunları haqqında təqdimatı dinləyib, Pekin-2022 Qış Olimpiya Oyunları, Vuokatti-2022 Avropa Gənclər Olimpiya Festivalı, Banska Bıstrısa-2022 Avropa Gənclər Yay Olimpiya Festivalı və Krakov-2023 Avropa Oyunlarına hazırlıq işləri ilə tanış olaraq bir sıra vacib məsələlərə dair qeyd və təkliflərini veriblər.

Seminarda müzakirə olan mühüm sənədlərdən biri də AOK-un 2030-cu il üçün hazırladığı Strateji Gündəliyi olub. Bununla yanaşı, MOK-lar Avropa İttifaqının qrant proqramlarına müraciət, marketinq və sosial media texnikası, bu sahədə strateji planlaşdırma və uyğun mövzular üzrə maraqlı təqdimatlarla tanış olublar.

Seminarın ənənəvi tədbirlərindən biri 2021-ci il üçün qitənin ən güclü yay idmanı üzrə atletinin müəyyən edilməsi olub. Beləliklə, beş finalçı arasından rumıniyalı David Popovici “Avropanın ən güclü gənc atleti” seçilərək 10-cu “Pyotr Nurovski” mükafatına layiq görülüb.



## “Olimpiya dünyası” - idmanımızın aynası

AzDBTİA-da “Olimpiya dünyası” qəzetinin 20 illik yubileyinə həsr olunmuş tədbir keçirildi
Səh. 2

Çoxsaylı oxucular ən böyük uğurumuzdur
Səh. 4

“Olimpiya dünyası” bir sıra beynəlxalq tədbirlərin təşkilində yaxından iştirak edib
Səh. 5

## Baş redaktordan

Milli Olimpiya Komitəsinin rəsmi mətbuat orqanı olan “Olimpiya dünyası” qəzetinin 20 ili tamam olur. Əlbəttə, 20 il bütün sahələrdə özünütəsdiq üçün kifayət qədər yetərli vaxtdır. Hər bir Kütləvi İnformasiya Vasitəsi bu müddət ərzində özünəməxsus simasını, yaradıcılıq potensialını, məqsəd və məramını, əldə etdiyi uğurları iftixarla ortaya qoya bilər. Ötən 20 il ərzində qazandığımız uğurlara, oxuculardan aldığımız çoxsaylı məktublara, telefon zənglərinə, idmançılar, idman mütəxəssisləri, federasiyalar və klublarla qurulan işgüzar, səmərəli əlaqələrimizə əsaslanaraq deyə bilərik ki, “Olimpiya dünyası” qəzeti özünəməxsus mövqeyi olan, sayılıb-seçilən, oxucular tərəfindən rəğbətlə qarşılanan nəşrlərdən biridir. Ölkəmizdə idmanın, Olimpiya hərəkatının sürətlə inkişaf etdiyi bir zamanda idman mətbuatı kimi son dərəcə məsuliyyətli bir sahədə fəaliyyətə başlamaq, təşkilatlanmaq, formalaşmaq, etiraf edək ki, o qədər də asan deyildi. Lakin o yerdə ki, qarşıya qoyulan vəzifələr aydın məqsəd və məramın, saf və təmiz istəyin işığında həyata keçirilir, orada uğur da var, nəticə də. “Olimpiya dünyası” da məhz belə bir aydın məqsəd və məramdan qaynaqlanaraq, həyata vəsiqə aldı.

Ölkəmizdə idmanın və Olimpiya hərəkatının inkişafı, kütləviləşməsi, Azərbaycanın dünyanın aparıcı idman dövlətlərindən birinə çevrilməsi, idmançılarımızın beynəlxalq yarışlarda çoxsaylı uğurları Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində mümkün olmuşdur. Bu diqqət və qayğının məntiqi nəticəsi olaraq, idmanın və Olimpiya hərəkatının inkişafı dönməz xarakter alıb, çox böyük və önəmli amil olan maddi-texniki bazanın yaradılması və möhkəmləndirilməsi istiqamətində nəhəng miqyaslı işlər görülüb. Atletlərimiz bir qayda olaraq, böyük nəticələr qazanırlar. Azərbaycanda idman və Olimpiya hərəkatı ətraf mühitdən təcrid olunmuş ayrıca bir sahə kimi deyil, cəmiyyətin, dünya idmanının bir hissəsi, bir qolu kimi inkişaf edir. Bu inkişafın nəticəsi olaraq, Azərbaycan dünyanın aparıcı idman dövlətlərindən biridir.

Azərbaycanda idmanın, Olimpiya hərəkatının inkişafı nəticəsində zamanın tələbindən yaranan ilk sayı 27 noyabr 2001-ci ildə çapdan çıxan həftəlik qəzet daha sonra hər sayı 6000 tiraj olmaqla həftədə iki dəfə rəngli formatda çap olunub. Hazırda həftəlik 4100 tirajla müntəzəm çap edilir və böyük oxucu kütləsinə malikdir. Qəzet 2016-cı ilin oktyabr ayından gündəlik onlayn qəzet kimi də fəaliyyət göstərir (**olimpiyadunyasi.com**). “Olimpiya dünyası” qəzeti ölkə və dünya idmanında, Olimpiya hərəkatında baş verən bütün yenilikləri, hadisələri öz səhifələrində müntəzəm olaraq əks etdirir. Müasir idman tariximizin şanlı səhifələrini yazmaq baxımından da qəzetimizin üzərinə çox böyük bir məsuliyyət düşür. Qədim ənənələrə malik idmanımızın müasir dövrdəki inkişaf tarixini izləmək baxımından da, qəzetimizdən hər zaman etibarlı mənbə kimi istifadə olunacaqdır. “Olimpiya dünyası” idmanın və Olimpiya hərəkatının təbliği ilə yanaşı, çoxsaylı idman tədbirlərinin, incəsənət və mədəniyyətlə bağlı layihələrin həyata keçirilməsinin təşkilatçısı da olub. Ən böyük nailiyyətlərimizdən biri də, qəzetimizin idman jurnalistlərinin yetişməsi sahəsindəki səmərəli fəaliyyətidir. Ötən illər ərzində “Olimpiya dünyası”nda istedadlı gənc idman jurnalistləri yetişib. Bu gün onlar müxtəlif KİV-lərində uğurla çalışırlar. “Olimpiya dünyası”nın fəaliyyəti həm dövlət tərəfindən, həm də müvafiq təşkilat və qurumlar tərəfindən də yüksək qiymətləndirilib.

Fəaliyyət göstərdiyi bu dövr ərzində qəzetimiz idman mətbuatı olaraq özünü təsdiq edə bildimi? Bizə göstərilən etimadı doğrultduqmu? Əlbəttə, bu sualların ən doğru və dürüst cavabını yalnız qədirbilən çoxsaylı oxucularımız verə bilərlər. Lakin cavabın mənfi və ya müsbət olmasından asılı olmayaraq, məsuliyyətin bizim üzərimizə düşdüyünü yetərincə anlayırıq. Məhz buna görə də qəzetimizin hər bir sayını son dərəcə böyük məsuliyyətlə hazırlamağa, bütün yaradıcılıq imkanlarımızı səfərbər etməyə, idmanımızın inkişafının, Olimpiya hərəkatının genişlənməsinin təbliği sahəsində qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışırıq. Bu, ilk sayımızdan da belə olub, indi də belədir və hər zaman da belə olacaqdır.

Bu gün biz 20 illik fəaliyyətimizə təvazökarlıqla yanaşırıq. Çünki yaxşı bilirik ki, tələbkar oxucuların zövqünü oxşamaq, onları maraqlandıran, narahat edən məsələlərdən söz açmaq, bir sözlə, oxucuların inandığı, etibar etdiyi, hər sayını səbirsizliklə gözlədiyi mətbuat orqanı kimi qazanılan etimadı qoruyub saxlamaq lazımdır. Bunun üçün isə əldə edilən uğurlarla kifayətlənməməli, həmişə olduğu kimi, yenə də böyük məsuliyyətlə çalışmalıyıq.

“Olimpiya dünyası”nın 20 illik yubileyi münasibətilə qəzetimizin səmimi və istedadlı kollektivi adından ölkəmizin idman ictimaiyyətini, bu illər ərzində həmişə yanımızda olan qayğıkeş insanları, xüsusilə də çoxsaylı oxucularımızı təbrik edir, ən xoş və səmimi arzularımızı bildiririk.

# “Olimpiya dünyası” - idmanımızın aynası

## AzDBTİA-da “Olimpiya dünyası” qəzetinin 20 illik yubileyinə həsr olunmuş tədbir keçirildi

***Noyabrın 24-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (AzDBTİA) akt zalında MOK-un Ədalətli oyunlar Komissiyasının təşkilatçılığı ilə “Olimpiya dünyası” qəzetinin 20 illik yubileyinə həsr olunmuş “Ədalətli oyunlar və idman mətbuatı” mövzusunda tədbir keçirildi. Tədbirdə Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının (AzƏOK) sədri Xəzər İsayev, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, AzDBTİA-nın rektoru Fuad Hacıyev, Mətbuat Şurasının sədri Əflatun Amaşov, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, “Olimpiya dünyası” qəzetinin baş redaktoru, Əməkdar jurnalist Murad Fərzəliyev, Olimpiya çempionu, DİN İC-in sədri Zemfira Meftaxetdinova, ikiqat paralimpiya çempionu, Qarabağ qazisi İlham Zəkiyev, Qarabağ qaziləri Anar Məmmədov, İlkin Bayramov və Osman Əliyev, dünya və Avropa çempionları, habelə idman ictimaiyyətinin digər nümayəndələri iştirak edirdilər.***

Tədbirin əvvəlində 44 günlük Vətən Müharibəsinin şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Tədbirdə çıxış edən AzƏOK-un sədri Xəzər İsayev Azərbaycan Ədalətli Oyunlar Komissiyası barədə məlumat verdi. O, komissiyanın yarandığı ilk gündən fəaliyyətini uğurla davam etdiyini bildirdi.

“Azərbaycan Ədalətli Oyunlar Hərəkatı işə başladığı gündən Avropa Ədalətli Oyunlar Hərəkatı və Beynəlxalq Ədalətli Oyunlar Komitəsi ilə çox sıx əlaqədədir. 2009-cu və 2015-ci illərdə Avropa və Beynəlxalq Ədalətli Oyunlar Hərəkatının Konqress və Assambleyaları ölkəmizdə uğurla təşkil olunub. Bizim işimiz təbliğat xarakteri daşıyır. Biz ədalət prinsiplərini həm də KİV-lərin iştirakı ilə həyata keçiririk. Çalışırıq ki, Azərbaycanda idmançılarımız ədalət prinsiplərini mənimsəsinlər, dərk etsinlər, həyatın hər bir sahəsində ədalətli olsunlar və ədalət prinsipləri ilə yaşasınlar”, - deyə Xəzər İsayev qeyd etdi.

AzƏOK-un sədri çıxışı zamanı “Olimpiya dünyası” qəzetini 20 illik yubiley münasibəti ilə təbrik edərək, nəşrin Ədalətli Oyunlar Komissiyası ilə birgə bir sıra tədbirlər həyata keçirdiyini diqqətə çatdırdı: “Milli Olimpiya Komitəsinin rəsmi mətbuat orqanı olan “Olimpiya dünyası” qəzetinin 20 illik yubileyidir. Qəzet öz səhifələrində hər zaman ədalətli oyun prinsipinin təbliğinə xüsusi önəm verib. Mən qəzetin rəhbərliyini və yaradıcı kollektivini 20 illik yubiley münasibəti ilə təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzulayıram”.

Xəzər İsayev çıxışının sonunda “Olimpiya dünyası” qəzetinin baş redaktoru Murad Fərzəliyevə qəzetin 20 illik yubileyi münasibətilə plaket təqdim etdi. AzƏOK-un sədri həmçinin tədbirdə iştirak edən qazilərə xüsusi xatirə hədiyyələri verdi.

Tədbirdə çıxış edən Gənclər və İdman nazirinin müavini İsmayıl İsmayılov Ədalətli Oyunlar Hərəkatının inkişafı istiqamətində mühüm işlərin görüldüyünü qeyd etdi. O, çıxışı zamanı “Olimpiya dünyası” qəzetini 20 illik yubiley münasibəti ilə təbrik edərək, nəşrin Azərbaycan idman mətbuatında əvəzsiz rola malik olduğunu bildirdi. “Bu gün idmançılarımız Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin onlara göstərdiyi yüksək etimaddan ruhlanaraq, parlaq qələbələr qazanırlar. Bu uğurların xalqımıza çatdırılmasında mətbuatın işi danılmazdır. Bu günlərdə 20 illiyini qeyd edən “Olimpiya dünyası” qəzeti Azərbaycan idmanının və Olimpiya Hərəkatının təbliğində əvəzsiz rola malikdir. Bu baxımdan qəzetin gördüyü işləri yüksək qiymətləndirirəm. Fürsətdən istifadə edib, “Olimpiya dünyası” qəzetini yubiley münasibəti ilə təbrik edir, gələcək fəaliyyətində uğurlar arzulayıram”, - deyə İsmayıl İsmayılov qeyd etdi.

Azərbaycan Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev “Olimpiya dünyası” qəzetinin 20 illiyi münasibəti ilə təbrik edərək, idman mətbuatının rolundan danışdı: “Bu gün idman mətbuatı, ölkə mediasının bir hissəsidir. Bu sahədə biz də öz töhfəmizi verməyə çalışırıq. Belə ki, 2017-ci ildə Akademiyada ingilis dilində idman jurnalistikasının magistr ixtisası yaranıb. Beynəlxalq standartı və ən yaxşı dünya təcrübəsini özündə əks etdirən proqram Azərbaycanda, eləcə də regionda bir ilkdir. Biz bu sahədə Böyük Britaniya Birləşmiş Krallığının Şeffild Hallam Universiteti və digər universitetlərlə birgə fəaliyyətimizi davam etdiririk”.

Fuad Hacıyev çıxışı zamanı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında müzəffər Ordumuzun torpaqlarımızı işğaldan azad etməsinin tarixə qızıl hərflərlə yazılan möhtəşəm hadisə olduğunu bildirdi. Müharibənin ilk günlərindən Akademiyanın cəbhəyə dəstək olduğunu qeyd edən rektor, ali təhsil ocağının könüllü olaraq müharibəyə yollanan 75 tələbə və magistrinin düşmənə qarşı qəhrəmancasına vuruşduğunu qeyd etdi. “Vətən uğrunda canlarından keçən şəhidlərdən 14-ü AzDBTİA-nın məzunudur. Akademiya tərəfindən şəhid-məzunlarının adlarını əbədiləşdirmək üçün onların adlarına fəxri təqaüdlər təsis edilib və yeni istifadəyə verilmiş tədris korpusunda auditoriyalara onların adları verilib. Akademiyanın Elmi Tədris Laboratoriyasında indiyədək 78 yaralı hərbçi Böyük Britaniyanın UCL universitetinin və Avstriyanın “Complex Core” şirkətinin tibbi reabilitasiya protokolları əsasında müalicəyə cəlb edildi. Onların böyük bir qismi reabilitasiya prosesini başa vuraraq, ordu sıralarına qayıdıblar”, - deyə Fuad Hacıyev qeyd etdi.

Rektor çıxışı zamanı Azərbaycanda Ədalətli Oyunlar Hərəkatı ilə bağlı böyük işlərin görüldüyünü diqqətə çatdırdı. O. ölkəmizdə bu sahədə görülən işlərin təqdirəlayiq olduğunu, idman ictimaiyyətinin nümayəndələrini daim ədalətli oyun prinsiplərinə sadiqlik nümayiş etdirdiklərini vurğuladı.

Sonra çıxış edən Mətbuat Şurasının sədri Əflatun Amaşov AzƏOK-un, eləcə də “Olimpiya dünyası” qəzetinin fəaliyyətindən danışdı. O, çıxışında Azərbaycan idman jurnalistikasından danışaraq, “Olimpiya dünyası” qəzetinin bu sahənin inkişafında müstəsna xidmətlərinin olduğunu qeyd etdi.

““Olimpiya dünyası” qəzeti bir neçə məqamda diqqəti cəlb edir. Qəzetdə bütün idman növlərinə fərq qoyulmadan işıqlandırılır və hər bir idman növündə baş verən yenilikləri oxuculara çatdırır. Qəzet eyni zamanda Azərbaycanda idmanın və Olimpiya Hərəkatının təbliği ilə məşğul olaraq yeni bir məktəb yaratdı. Həqiqətən də “Olimpiya dünyası” qəzeti idman jurnalistikası üçün bir məktəbdir. Bu qəzetin üzvləri bu gün ölkədə fəaliyyət göstərən qəzet, sayt və televiziyalarda çalışır. Bu çox önəmlidir. Qəzet eyni zamanda Bakı Dövlət Universitetinin jurnalistika fakültəsi ilə mütəmadi olaraq əlaqə saxlayır və onları redaksiyaya cəlb edir. Mən “Olimpiya dünyası” qəzetinin yaradıcı kollektivini səmimi qəlbdən təbrik edir və yaradıcılıq uğurları arzulayıram”, - deyə Əflatun Amaşov bildirdi.

MOK-un aparıcı mütəxəssisi, “Olimpiya dünyası” qəzetinin baş redaktoru Murad Fərzəliyev iştirakçıları salamlayaraq, tədbirlə bağlı ətraflı məlumat verdi. O, “Olimpiya dünyası” qəzetinin keçdiyi şərəfli yoldan danışdı.




“20 il istənilən idman nəşri üçün özünü təsdiq baxımından kifayət qədər yetərli bir zamandır. “Olimpiya dünyası” qəzeti idmanımızın təkcə bu dövr ərzində təbliği ilə kifayətlənməyib. Ölkə başçısı cənab İlham Əliyev 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra sözün əsl mənasında idmanın və Olimpiya hərəkatının intibah dövrü başladı. Bütün bu uğurlu fəaliyyəti təbliğat baxımından yeni müstəviyə qaldırmaq üçün yeni bir idman nəşrinin yaranması üçün zərurət yarandı. 2001-ci il noyabrın 27-də bizim ilk sayımız işıq üzü gördü. “Olimpiya dünyası” qəzeti bu illər ərzində 100 illik tarixi özündə əks etdirən idman uğurlarımıza yenidən nəzər salaraq, bu mükəmməl tarixi yenidən sistemli şəkildə Azərbaycanın idman tarixinin yaddaşına köçürüb. Biz əminliklə deyə bilərik ki, bu gün “Olimpiya dünyası” Azərbaycan idmanında etibarlı mənbə olan nəşrlərdən biridir”, - deyə Murad müəllim diqqət çatdırdı.

“Olimpiya dünyası” qəzetinin baş redaktoru çıxışı zamanı bildirdi ki, bu idman nəşri hər zaman Azərbaycan Ədalətli Oyunlar Komissiyası ilə müştərək fəaliyyət göstərib: “Qəzetimizin səhifələrində bu sahədə çoxsaylı yazılar və məqalələr dərc olunub. Ədalət prinsipi cəmiyyətin həyatında çox vacib amildir. Ədalət hər birimizin daxilində olan və hər birimizin həyatı ilə bağlı olan bir anlamdır. İdmançılar həm fiziki, həm də mənəvi cəhətdən sağlam insan kimi cəmiyyətimiz üçün nümunədirlər. Cəmiyyətin saflaşması üçün idmançıların bu keyfiyyətlərindən istifadə etmək mümkündür”.

Sonra söz Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasova verildi. İdarə rəisi çıxışında bildirdi ki, rəhbərlik etdiyi qurum uzun müddətdir ki, “Olimpiya dünyası” qəzeti ilə sıx əməkdaşlıq edir. “Bu qəzetin əməkdaşları idman jurnalistikasında kifayət qədər nüfuza malikdirlər. Vaxtilə bu qəzetin redaksiyasında fəaliyyətə başlayan tələbələr sonradan ayrı-ayrı KİV-lərdə, eləcə də digər dövlət təşkilatlarında çalışırlar. Qəzetin səhifələrində yer alan maraqlı və təhlili yazılar çoxsaylı oxucular tərəfindən rəğbətlə qarşılanıb. Həmin yazılar gələcəkdə etibarlı istinad mənbəyidir. Bu işdə qəzetin kollektivinə və rəhbərliyinə uğurlar diləyirəm”, - deyə Raqif Abbasov vurğuladı.

Olimpiya çempionu, DİN İC-in sədri Zemfira Meftaxetdinova çıxışında “Olimpiya dünyası” qəzetini 20 illik yubiley münasibətilə təbrik edərək, nəşri idmançıların doğma qəzeti kimi dəyərləndirdi:

“Bu gün Azərbaycan idmanından danışanda idman mətbuatının da rolunu qeyd etmək lazımdır. Media nümayəndələri biz idmançıların uğurlarını işıqlandıraraq bu xəbərləri tez bir zamanda xalqa çatdırır. Mən bu baxımdan 20 yaşı tamam olan “Olimpiya dünyası” qəzetinin rolunu vurğulamaq istəyirəm. Bu qəzet Olimpiya oyunlarında və bir sıra mötəbər yarışlarda idmançılarımızın qələbə xəbərlərini xalqa operativ surətdə çatdırıb. “Olimpiya dünyası” bizim doğma qəzetimizdir. Mən qəzetin kollektivini yubiley münasibəti ilə təbrik edərək, onlara yeni uğurlar arzulayıram. Həmişə idmançılarımızın qələbə xəbərlərini öz səhifələrinizdə işıqlandırasınız”.



İkiqat Paralimpiya çempionu İlham Zəkiyev çıxışı zamanı “Olimpiya dünyası” qəzetini yubiley münasibəti ilə təbrik edərək, ilk müsahibələrini bu qəzetə verdiyini qeyd etdi. “Mənim ilk qələbələrimi cəmiyyətimizə “Olimpiya dünyası” qəzeti çatdırıb. Bu gün ölkəmizdə sayılıb-seçilən idman nəşrlərindən biri olan bu qəzetin 20 yaşı tamam olur. Qəzetin yaradıcı kollektivini yubiley münasibəti ilə təbrik edirəm. Arzu edirəm ki, idmançılarımızın yeni qələbə xəbərlərini bundan sonra da idmansevərlərimizə çatdırasınız”.

Daha sonra Qarabağ qazisi Anar Məmmədov, Olimpiya kateqoriyalı hakim, London-2012 Yay Olimpiya Oyunlarının “Qızıl fit” mükafatının sahibi Hicran Şərifov, “İgid” güləş klubunun sədri Kazım Vəliyev Azərbaycan Ədalətli Oyunlar Komissiyasının, eləcə də “Olimpiya dünyası” qəzetinin fəaliyyətindən danışdılar.

# “Olimpiya dünyası” - idmanımızın aynası

***Milli Olimpiya Komitəsinin rəsmi mətbuat orqanı olan “Olimpiya dünyası” qəzetinin ilk sayı 2001-ci il noyabrın 27-də işıq üzü görüb. İlk gündən “Olimpiya dünyası” ölkə idmanının, Olimpiya hərəkatının və Olimpiya ideallarının təbliğini özünün başlıca vəzifəsi hesab edir. İdman mətbuatı ailəsində özünəməxsus mövqeyi olan “Olimpiya dünyası” qəzeti bu illər ərzində sevilən nəşrlərdən birinə çevrilib. Ötən müddət ərzində qəzet öz səhifələrində dünyada və ölkədə baş verən mühüm idman hadisələrini, yeniliklərini müntəzəm və operativ işıqlandırmaqla artıq 20 ildir ki, atletlərimizin çıxış etdikləri yarışlar, onların əldə etdikləri uğurlar barəsində operativ xəbərlərlə oxucuların görüşünə gəlir.***

Şübhəsiz ki, idmanın və Olimpiya Hərəkatının inkişafının, kütləviləşməsinin təbliği sahəsində idman mətbuatının rolu danılmazdır. Hər hansı sahədə əldə edilən uğur təbliğat işinin keyfiyyətindən və səviyyəsindən də asılıdır. Geniş auditoriya kütləsi toplamaq üçün, ilk növbədə, oxucu zövqünü və tələbatını təmin etmək lazımdır. Müasir oxucu çoxsaylı informasiya ilə yanaşı, ölkə idmanındakı yenilikləri də daim izləmək istəyir. Bu baxımdan, qəzetin əsas məqsədi ölkədə Olimpiya hərəkatının genişlənməsi, idmanın inkişafı sahəsində həyata keçirilən tədbirlər barədə operativ məlumatlar vermək, idmansevərləri, idmançıları və idman mütəxəssislərini lazımi informasiya ilə təmin etməkdir. “Olimpiya dünyası” qəzetini digər idman nəşrlərindən fərqləndirən başlıca xüsusiyyət onun bütün idman növlərini eyni səviyyədə diqqətdə saxlamasıdır.

“Olimpiya dünyası” fəaliyyət göstərdiyi 20 il ərzində idman ictimaiyyətinin nümayəndələri ilə yanaşı, oxucularla da sıx əlaqələr yaratmağa nail olub. Qəzet oxucuların idman haqqında biliklərini yoxlamaq və artırmaq məqsədilə tez-tez maraqlı müsabiqələr və viktorinalar təşkil edir. Əsas məqsəd ölkəmizdə idmanın, Olimpiya hərəkatının inkişafını nəinki Azərbaycanda, hətta ölkəmizin hüdudlarından kənarda da layiqli səviyyədə təbliğ etməkdir.

“Olimpiya dünyası”nın səhifələrində müxtəlif rubrikalar altında dərc olunan yazılar oxucularda maraq oyadır. Oxucular idman ictimaiyyətinin tanınmış nümayəndələri, Olimpiya, Avropa və dünya çempionlarının idmandakı uğurları və şəxsi həyatları haqqında maraqlı məlumatlarla tanış olmaq imkanı əldə edirlər. Müxtəlif mövzuları əhatə edən “Mütəxəssis rəyi”, “Sənətçi idman, idmançı sənət haqqında”, “Hesabat kürsüsü” “Sağlamlıq resepti-idman”, “İdmançı ailəsi”, “İdmandan kənar”, “İdmançı menyüsü”, “Ali məktəblərin idman həyatı”, “İdman klublarında”, “Bölgə idmanı”, “Küncdən zərbə”, “İdman ulduzları”, “Gənclər və idman”, “Qadın və idman”, “Musiqi və idman”, “Unudulmayan əfsanələr”, “İdmançılar narkomaniyaya qarşı” və başqa bu kimi rubrikalar oxucular tərəfindən maraqla qarşılanır.

“Olimpiya dünyası” qəzetində Afina-2004, Pekin-2008, London-2012, Rio-2016, Tokio-2020 Yay və bir neçə Qış Olimpiya Oyunları, Sinqapur-2010, Nankin-2014, Buenos-Ayres-2018 Yeniyetmələrin Yay Olimpiya Oyunları, Avropa Yeniyetmələrinin Olimpiya Festivalları, I Avropa Oyunları, II Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları və bir çox mötəbər beynəlxalq yarışlardan birbaşa və operativ məlumatlar verilib. Olimpiya ideallarının, Olimpiya hərəkatının Azərbaycanda təbliğinə xidmət edən “Olimpiya dünyası” qəzeti həm ölkə, həm də dünya idmanının aynasına çevrilib. Bu möhtəşəm idman tədbirlərində “Olimpiya dünyası”nın işi digər mətbu orqanlarının fəaliyyətindən xüsusilə fərqlənib. Bu yarışlarda tarix yazan idmançılarımız həyəcanlı anların yaşandığı idman arenalarında ilk müsahibələrini məhz “Olimpiya dünyası”na veriblər. Qəzet Olimpiya yığmamızın dünyanın ən mötəbər yarışlarına hazırlığından, onların olimpiadada iştirakından geniş şərhlər hazırlayıb. Atletlərimizlə Afina, Pekin, London, Rio-de Janeyro, Tokio, Sinqapur, Nankin, Buenos-Ayres və digər yerlərdə yaradılan canlı telefon bağlantıları materialların daha geniş, daha ətraflı və oxunaqlı olmasına zəmin yaradıb.

İdman və Olimpiya Hərəkatının təbliğində peşəkarlıq nümayiş etdirən “Olimpiya dünyası” qəzeti 44 günlük Vətən müharibəsinə xüsusi yer ayırdı. Qəzetimiz bütün səhifələrini Vətən müharibəsinə həsr etdi. Böyük Zəfərdən sonra da qəzetimiz qələbəyə həsr olunmuş yazıları davam etdirir. “Şəhidlik zirvəsinə ucalan idmançılar”, “Vətən müharibəsinin idmançı qəhrəmanları” rubrikası altında yazılar qəzetimizin səhifələrində dərc olunur.

“Olimpiya dünyası”nın fəaliyyəti yüksək qiymətləndirilib. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə qəzetimizin iki əməkdaşı “Azərbaycan Respublikasının əməkdar jurnalisti”, iki əməkdaşı da “Tərəqqi” medalına layiq görülüb. Qəzet Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyasının “Ədalətli idman təbliğatçısı” nominasiyasının qalibi olub. Belə ki, Azərbaycan İdman Jurnalistləri Assosiasiyası (AİJA) tərəfindən qəzet dəfələrlə “İlin ən yaxşı idman nəşri” nominasiyasına layiq görülüb. Qəzetin əməkdaşları da müxtəlif illərdə “İlin idman jurnalisti” nominasiyasının qalibi olublar. 2004-cü ildə “Olimpiya dünyası” qəzetinin baş redaktoru Gənclər, İdman və Turizm Nazirliyi tərəfindən “İlin ən yaxşı idman jurnalisti” nominasiyasında birinci olub.

Beynəlxalq mətbuatın da diqqət mərkəzində olan “Olimpiya dünyası” İspaniyada “Nüfuz və keyfiyyətə görə-Aktualidad-XXI” adlı beynəlxalq mükafata layiq görülüb. İdmanın təbliği sahəsindəki fəaliyyətinə görə Beynəlxalq Gimnastika Federasiyasının xüsusi diplomu ilə təltif edilib.

Qəzet həm də AFFA, Azərbaycan Gimnastika Federasiyası, Azərbaycan Voleybol Federasiyası, Azərbaycan Taekvondo Federasiyası, Azərbaycan Güləş Federasiyası və bir çox digər idman qurumları tərəfindən dəfələrlə diplom və mükafatlara layiq görülüb.

“Olimpiya dünyası” qəzeti idmanın təbliği ilə yanaşı, idman tədbirlərinin, müxtəlif layihələrin həyata keçirilməsinə xüsusi önəm verir. İndiyədək qəzet bir sıra ölkədaxili və beynəlxalq yarışların, mədəniyyət tədbirlərinin təşkilatçısı olub. Kütləvi İnformasiya Vasitələrinin nümayəndələri arasında əməkdaşlıq, yaradıcılıq əlaqələrini daha da möhkəmləndirmək üçün “Olimpiya dünyası” və “İdman” qəzetinin təşkilatçılığı ilə keçirilən “KİV-2003” futzal turnirində Kütləvi İnformasiya Vasitələrinin 14 komandası qüvvəsini sınayıb. “Olimpiya dünyası”nın 2004-cü ildə jurnalistlər arasında ən güclü şahmatçını aşkar etmək üçün təşkil etdiyi yarışlar da böyük maraqla qarşılanıb.

“Olimpiya dünyası”nın təşkilatçılığı ilə bölgələrdə də bir sıra tədbirlər həyata keçirib. Belə ki, qəzetin Gəncədə təşkil etdiyi karate-do üzrə “Gəncə kuboku” beynəlxalq turniri də belə tədbirlərdəndir. 2011-ci il oktyabrın 23-də “Olimpiya dünyası” qəzetinin təşkilatçılığı ilə jurnalistlərlə “Neftçi”nin veteran futbolçuları arasında yoldaşlıq görüşü də keçirilib.

*(ardı 4-cü səhifədə)*





# “Olimpiya dünyası” - idmanımızın aynası

## Təbriklər

***Lyudmila Şubina***
***(Olimpiya çempionu, Monreal-1976)***

- “Olimpiya dünyası” qəzeti biz idmançıların uzun illərdir ki, ən yaxın dostudur desəm, yanılmaram. Qəzet ölkə və dünya idmanında baş verən ən son xəbərlər, maraqlı məqalələr, araşdırma yazılarla çoxsaylı oxucu kütləsinin sevimli nəşrinə çevrilib. Hər zaman yeni-yeni rubrikalarla oxucuların görüşünə gələn qəzeti, mən də böyük məmnuniyyətlə izləyirəm, “Olimpiya dünyası” qəzetinin rəhbərliyi olmaqla, bütün kollektivini 20 illik yubiley münasibətilə təbrik edirəm.

***Rəfiqə Şabanova***
***(Olimpiya çempionu, Monreal-1976)***

- Ölkəmizdə idmançıları daim diqqətdə saxlayan və idmanın təbliğatında xüsusi rolu olan belə bir qəzetin olması sevindirici haldır. Həmçinin qəzetin ölkəmizi dünyaya tanıdan Olimpiya çempionlarımıza olan xüsusi diqqəti, karyeramız barədə geniş kütləni məlumatlandırması və bununla da gənc nəsli idmana həvəsləndirməsi təqdirəlayiqdir. İdman aləminin sevimli nəşrinə çevrilən “Olimpiya dünyası” qəzetini təbrik edir, daha da böyük uğurlar əldə etməsini arzulayıram.

***Nazim Hüseynov***
***(Olimpiya çempionu, Barselona-1992)***

- “Olimpiya dünyası” qəzeti ilə əlaqəm uzun illərdir davam edir. Yadıma gəlir ki, Afina-2004 Yay Olimpiya Oyunları ərəfəsində maraqlı bir müsabiqə elan etmişdi. Həmin müsabiqədə mənimlə yanaşı, bir sıra idmançıların uşaqlıq şəkilləri paylaşılmışdı. Şəkilləri doğru tapan oxuculara mükafatlar verilirdi. Səhv etmirəmsə, elə qəzetinizlə ilk dəfə yaxından tanışlığım da bu illərə təsadüf edir. Fəaliyyətiniz dövründə haqqımda bir sıra maraqlı yazılar hazırlamısınız. Bunun üçün rəhbərliyinizə və kollektivinizə minnətdarlığımı bildirir və yubileyinizi təbrik edirəm.

***Zemfira Meftaxetdinova***
***(Olimpiya çempionu, Sidney-2000)***

- “Olimpiya dünyası” qəzeti ilə illərdir ki, tanışam. Əminliklə deyə bilərəm ki, qəzet nəşr olunan gündən bütün idmançıların sevimli qəzetinə çevrilib. Mən çox şadam ki, ölkəmizdə idmanın hər bir sahəsini əhatə edən, sevərək oxunan belə bir idman qəzeti dərc olunur. Qəzetiniz hər zaman Olimpiya çempionlarını da diqqətdə saxlayır. Bu 20 il ərzində müsahib kimi dəfələrlə qonağınız olmuşam. Sizi ürəkdən təbrik edir və biri-birindən maraqlı müsahibələr və yazılara görə qəzetin rəhbərliyinə və hər bir əməkdaşına minnətdarlığımı bildirirəm.

***Namiq Abdullayev***
***(Olimpiya çempionu, Sidney-2000)***

- Hər bir idmançının sevimli nəşri olan qəzetinizin yaradıcı kollektivini yubiley münasibətilə təbrik edirəm. “Olimpiya dünyası” hər birimizin qəzetidir. Bu qəzet ölkəmizdə bütün idman növlərinə, o cümlədən də güləşə öz səhifələrində yer ayırır. İdmançı karyeram ərzində qəzetinizə dəfələrlə müsahibələr vermişəm. Qəzetiniz hər zaman həm yarışdan əvvəl, həm də sonra idmançılardan müsahibələr alır, onları yeni qələbələrə ruhlandırır. Hesab edirəm ki, Azərbaycan idmanı yaşayıb, inkişaf etdikcə, qəzetiniz də bu uğurlardan bəhrələnib uzunömürlü olacaq. Bir daha təbriklər!

***Fərid Mansurov***
***(Olimpiya çempionu, Afina-2004)***

- “Olimpiya dünyası” qəzeti bizim üçün doğma və sevimli olan bir idman nəşridir. 20 il ərzində Azərbaycan idmançıları 5 dəfə Olimpiya oyunlarında uğurla çıxış ediblər. Həmin uğurların hər biri “Olimpiya dünyası”nın səhifələrində geniş yer alıb. Olimpiya çempionu olduqdan sonra sevinicimi ilk olaraq sizin qəzetlə bölüşmüşəm. Həmin anları indiyə qədər xatırlayıram. Ümumiyyətlə, sizin vasitənizlə biz idmançıların uğurları ictimaiyyətə çatdırılır. Azərbaycan idmanı yüksəldikcə əldə olunan nailiyyətlərimizi daim “Olimpiya dünyası”nda izləyirik. Sizi təbrik edir və yaradıcılıq uğurları arzulayıram.

***Elnur Məmmədli***
***(Olimpiya çempionu, Pekin-2008)***

- “Olimpiya dünyası” qəzetinin ərsəyə gəlməsi uğurlu bir layihədir. Qəzet 20 il ərzində şərəfli bir yol keçib, ölkəmizdə Olimpiya hərəkatının, idmanın təbliğinə layiqli töhvələr verib. İdman sahəsində ən yüksək zirvələri fəth edən çempionlarımız deməк olar ki, ilk müsahibələrini “Olimpiya dünyası” qəzetinə veriblər. Sevindirici haldır ki, ölkəmizdə idman sahəsini hərtərəfli işıqlandıran belə bir qəzetimiz var. Sevimli qəzetimizi yubiley münasibəti ilə təbrik edir, yaradıcı kollektivinə uğurlar arzulayıram.

## Çoxsaylı oxucular ən böyük uğurumuzdur




*(əvvəli 3-cü səhifədə)*

İdman mövzusunda karikaturalara maraq həmişə böyük olub. Dünyada idman çox inkişaf etdiyindən karikatura ustaları dəfələrlə bu mövzuya müraciət edir, öz ustalıqlarından istifadə edərək gözəl nümunələr yaradırlar. Ölkəmizdə də karikaturaçılar idman mövzusuna müraciət edirlər. “Olimpiya dünyası” qəzeti karikaturaçılarda idman sahəsinə marağı daha da artırmaq məqsədilə I Bakı Beynəlxalq Karikatura Müsabiqəsi təşkil edib. Bu müsabiqədə 26 ölkədən 70 rəssam bacarığını nümayiş etdirib. 2006-cı ildə qəzetin təşkilatçılığı ilə keçirilən II Bakı Beynəlxalq Karikatura Müsabiqəsində isə bütün qitələri təmsil edən 40 ölkədən 163 rəssam 500 karikatura ilə iştirak edib. Qəzetin “Ən yaxşı idman fotoşəkili” və “Ən yaxşı idman yazısı” adlı müsabiqələri də uğurla keçirilib.

Bundan başqa bu il Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) Ədalətli Oyunlar Komissiyasının və “Olimpiya dünyası” qəzetinin birgə təşkilatçılığı ilə “İdman və ədalətli oyunlar” mövzusunda rəsm müsabiqəsi keçirilib. 3-8 və 9-16 yaş qrupları üzrə keçirilən müsabiqəyə paytaxt və Naxçıvan MR ilə yanaşı, 42 bölgədən ümumilikdə 2114 rəsm daxil olub. Onlardan 1560-ı 9-16 yaş qrupu, 554-ü 3-8 yaş qrupu üzrə olub. Rəsmlər hər yaş qrupuna uyğun olaraq Azərbaycan Rəssamlar İttifaqını təmsil edən peşəkar münsiflər heyəti tərəfindən qiymətləndirilib.

“Olimpiya dünyası” qəzeti 2006-cı ildən başlayaraq Yetkinlik Yaşına Çatmayanların Tərbiyə Müəssisəsində idman tədbirləri təşkil edib. Burada stolüstü tennis üzrə yarış təşkil olunmuş və bu yarışın qaliblərinə MOK tərəfindən diplomlar və idman kostyumları verilmişdir. Növbəti tədbir 2007-ci il martın 5-də “Olimpiya dünyası” ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə 4 saylı Cəzaçəkmə Müəssisəsində təşkil edilib. 8 Mart-Beynəlxalq Qadınlar Günü ərəfəsində belə bir tədbirin keçirilməsində əsas məqsəd azadlıqdan məhrumetmə ilə bağlı yaranmış gərginliyi aradan qaldırmaq, məhbusların psixoloji durumunu sabit saxlamaq və onların asudə vaxtının maraqlı və səmərəli təşkilinə kömək göstərmək idi. Cəzaçəkmə Müəssisəsində voleybol üzrə yarış keçirilmiş, bu yarışlara tanınmış voleybolçu Alla Həsənova hakimlik etmiş, qaliblərə və cəzaçəkmə müəssisəsindəki qadınlara hədiyyələr təqdim olunmuşdur. Belə tədbirlər zamanı Olimpiya, dünya və Avropa çempionları ilə məhbusların görüşü keçirilmiş, Milli Olimpiya Komitəsi tərəfindən Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisələrinin kitabxanalarına MOK-un nəşrlərindən nümunələr və idman zallarına müxtəlif idman avadanlıqları verilmişdir.

Qəzetimizin yubileyi ilə bağlı bu il noyabrın 3-də MOK-un Azərbaycan Mətbuat Şurasının (MŞ) təşkilatçılığı ilə Mətbuat Şurasında “Olimpiya dünyası” qəzetinin 20 ilik yubileyinə həsr olunmuş “Narkomaniyaya qarşı mübarizədə media və idmanın rolu” mövzusunda tədbir keçirilib. Tədbirdə iştirak edən dünya, Avropa və Olimpiya çempionları və digər qonaqlar gənclərin narkomaniya və zərərli vərdişlərdən qorunması, sağlam həyat tərzinə yönəlməsi ilə bağlı fikirlərini bildiriblər. Qeyd edək ki, qəzetimizin səhifələrində “İdmançılar narkomaniyaya qarşı” rubrikası altında oxucularımıza müntəzəm olaraq maraqlı yazılar təqdim olunur.

“Olimpiya dünyası” qəzetinin 20 il ərzindəki ən böyük uğurlarından biri də, ölkədə idman jurnalistlərinin yetişməsi sahəsində fəaliyyət göstərməsidir. Belə ki, ali təhsil ocaqlarının jurnalistika və digər fakültələrində təhsil alan, idmana maraq göstərən və bu sahənin təbliği ilə məşğul olmaq istəyən prespektivli gənclər redaksiyaya işə dəvət olunurlar. Ötən illər ərzində “Olimpiya dünyası”nda 40 nəfərə yaxın gənc idman jurnalisti yetişib. Onlar ali məktəblərdə təhsillərini davam etdirməklə yanaşı, həm də idman jurnalistikasının sirlərinə yiyələnib və təcrübə əldə ediblər. Hazırda onlar ölkəmizin müxtəlif KİV-lərində idman jurnalisti kimi çalışırlar. Bu təcrübə indi də davam edir. İdman sahəsini yaxşı bilən, yaradıcı və zəngin təcrübəyə malik idman jurnalistlərinin yetişməsi üçün qəzetin kollektivi öz səy və bacarığını əsirgəmir.

Azərbaycanda idmana dövlət səviyyəsində göstərilən diqqət və qayğının nəticəsi olaraq, ölkədə idmanın inkişafını, Olimpiya Hərəkatının genişlənməsini, maddi-texniki bazanın sürətlə möhkəmlənməsini, atletlərimizin beynəlxalq səviyyəli uğurlarını daim diqqət mərkəzində saxlayan və təbliğ edən “Olimpiya dünyası” əvvələr həftədə iki dəfə rəngli formatda 6000 tirajla çap edilirdi. Hazırda qəzet həftədə bir dəfə 4100 tirajla çap edilir və geniş oxucu kütləsinə malikdir. “Olimpiya dünyası” qəzeti hazırda həftəlik qəzet kimi fəaliyyət göstərsə də, 2016-cı ilin oktyabr ayından həm də gündəlik çıxır. Belə ki, onlayn formatda da gündəlik olaraq oxucuların görüşünə gəlir (**olimpiyadunyasi.com**).

Böyük məsuliyyət tələb edən qəzet işi kollektiv əməyin məhsuludur. Redaksiyada idmana və jurnalistikaya qəlbən bağlı mehriban və işgüzar yaradıcı kollektiv formalaşıb.

Uğurlu fəaliyyətimiz bu gün də davam edir. Hesab edirik ki, Azərbaycan idmanı və Olimpiya Hərəkatı inkişaf etdikcə, idmançılarımızın nailiyyətləri artdıqca, qəzetimiz də qələbə xəbərlərini çoxsaylı oxucularımıza çatdıracaq.

# “Olimpiya dünyası” - idmanımızın aynası

***Bu il 20 yaşını qeyd edən “Olimpiya dünyası” qəzeti idmanın təbliği ilə yanaşı bir sıra tədbirlərin təşkilatçısı da olub. Bu müddət ərzində qəzetimizin təşkil etdiyi idman və mədəniyyət mövzusunda tədbirlər ölkə ictimaiyyəti arasında böyük rəğbətlə qarşılanıb.***

2004-cü il iyunun 28-də Azərbaycan Rəssamlar İttifaqının Vəcihə Səmədova adına sərgi salonunda “Olimpiya dünyası” qəzetinin idman mövzusunda təşkil etdiyi I Bakı Beynəlxalq Karikatura Müsabiqəsinə təqdim olunmuş əsərlərdən ibarət sərginin açılışı olub. Bu müsabiqəyə planetin 26 ölkəsindən 70 rəssam 300-ə yaxın karikatura göndərmişdi. Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadənin sədrliyi ilə 9 nəfərdən ibarət münsiflər




Yaroslav Jarovski (Polşa), I yer

## “Olimpiya dünyası” bir sıra beynəlxalq tədbirlərin təşkilində yaxından iştirak edib

### *Dünyanın ən yaxşı karikaturaçı rəssamlarının əsərləri qəzetimizin keçirdiyi müsabiqəyə təqdim olunub*

heyəti müsabiqəyə təqdim edilmiş əsərləri dəyərləndirmişdi.

Belə ki, Yaroslav Jarovski (Polşa) I, Vladimir Kazanevski (Ukrayna) II, Aleksey Talimonov (Böyük Britaniya) III yerləri tutmuşdular. Culiya Lisçenko (Ukrayna), Maurisio Da Kosta Patelli (Braziliya), Gennadi Şeqodayev (Rusiya), Sadık Pala (Türkiyə), Ümit Müfit Dinçay (Türkiyə), Hafiz Nəsiroğlu (Azərbaycan), Yaşar Səmədov (Azərbaycan), Yuri Kosobukin (Ukrayna), Vanq Vinxianq (Çin), Piyerpaolo Perrazzali (İtaliya), Riad Xəlil (Suriya), Andrey Puçkanyov (Belarus), Tomek Vorlszn (Polşa), Yu Lianq (Çin) və Steffen Jasnovski (Almaniya) həvəsləndirici mükafatlara layiq görülmüşdülər.



Vladimir Kazanevski (Ukrayna), II yer

### II Bakı Beynəlxalq Karikatura müsabiqəsi

2006-cı ildə “Olimpiya dünyası” qəzetinin təşkilatçılığı ilə keçirilən II Bakı Beynəlxalq Karikatura müsabiqəsinə artıq 40 ölkədən - Azərbaycan, Argentina, Bolqarıstan, Braziliya, Serbiya, Çernoqoriya, Çin, Kosta-Rika, Almaniya, Uruqvay, Koreya, Fransa, Rusiya, Suriya, İspaniya, Macarıstan, Qazaxıstan, Fələstin, Türkiyə, Mərakeş, Kuba, İordaniya, İran, Kipr, İrlandiya, Kolumbiya, Yunanıstan, Ukrayna, İtaliya, Hindistan, Slovakiya, İsrail, Özbəkistan, Rumıniya, Polşa, Portuqaliya, İndoneziya, Makedoniya, İngiltərə və Misirdən 163 rəssam 500-dən çox karikatura göndərmişdi.

Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un Nəşriyyat, İnformasiya və Olimpiya Komitələri ilə Əlaqələr İdarəsinin rəisi Camaləddin Rəhmanov, Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü Zərifə Salahova, “Olimpiya dünyası” qəzetinin baş redaktoru Murad Fərzəliyev, Karikaturaçılar Birliyinin direktoru Seyran Cəfərli, karikaturaçı rəssamlar Rahim Baqqal Askari (İran), Miroslav Hajnos (Polşa), Hüseyn Çakmak (Kipr) və Murad Yılmazdan (Türkiyə) ibarət münsiflər heyəti qaliblər müəyyənləşdirmişdi. Yekun nəticədə türkiyəli karikaturaçı Oğuz Gurel II Bakı Beynəlxalq Karikatura Müsabiqəsinin qalibi adını qazanmışdı. İkinci yeri Kasso (Braziliya), üçüncü yeri Əlireza Kərimi Moxaddam (İran) tutmuşdu. Qaliblərə mükafatlar verilmişdi. Müsabiqədə fərqlənən 19 karikaturaçı isə həvəsləndirici mükafatlarla təltif olunmuşdu.



Aleksey Talimonov (İngiltərə), III yer

## Təbriklər

***Toğrul Əsgərov***
***(Olimpiya çempionu, London-2012)***

- Bu günlərdə 20 illik yubileyini qeyd edən “Olimpiya dünyası” qəzeti biz idmançıların sevimli nəşridir. Elə bir idmançı və Olimpiya çempionu yoxdur ki, bu qəzeti tanımasın, müsahibə verməsin. Mən London-2012 Yay Olimpiya Oyunların qalibi olanda bu qəzetin əməkdaşları Gəncədə, mənim yaşadığım evdə qonaq olmuşdular. Həmin vaxt qəzetinizdə bu qələbə barədə geniş məqalə çap olunmuşdu. Həmin qəzeti indi də saxlayıram. Yubiley münasibəti ilə qəzetin rəhbərliyini və əməkdaşlarını bir daha təbrik edir, sizə yeni uğurlar arzulayıram.

***İlham Zəkiyev,***
***(İkiqat Paralimpiya çempionu)***

- Yadıma gəlir ki, 2003-cü il dünya oyunlarında bürünc medal qazanmaqla Afina Paralimpiya Oyunlarına lisenziya əldə etdim. Elə həmin ildən mənim “Olimpiya dünyası” qəzeti ilə tanışlığım başladı. Məni redaksiyanızda çox gözəl qarşıladılar və bu qələbə xəbəri qəzetinizdə işıqlandırıldı. Həmin vaxtlar saytlar elə də populyar deyildi, əksər məlumatları qəzetlərdən və televiziyalardan əldə edirdik. Çox qısa müddətdə bu informasiya geniş oxucu kütləsinə yayıldı. Təbii ki, iştirak etdiyim yarışlardan sonra da idmansevərlərə mənim haqqımda məlumatlar verildi. 20 yaşını qeyd edən “Olimpiya dünyası” qəzetinin bütün kollektivini təbrik edirəm. Arzu edirəm ki, bol qələbə, zəfər xəbərləri olsun ki, siz də onları yazıb xalqımıza çatdırasınız. 20 yaşınız mübarək!

***Niyaməddin Paşayev,***
***(Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidenti)***

- Peşəkar kollektiviniz Azərbaycanın idman həyatını daim diqqətdə saxlayır, beynəlaxalq arenalarda baş verən idman hadisələri haqqında dolğun məqalələr hazırlayır. Bu baxımdan qəzetinizin məqsədyönlü fəaliyyəti həmişə yüksək qiymətləndirilib. 20 ildir ki, fəaliyyət göstərən qəzet öz nüfuzunu bu gün də qoruyub saxlayır və idman mətbuatında aparıcı yerlərdən birini tutur. Öz liderlik keyfiyyətləri ilə seçilən qəzetinizə yeni uğurlar diləyirəm.

Azərbaycan idmanının və idmançısının təbliğatı, tanıtdırılması və bu sahədə baş verən proseslərin, keçirilən yarışların operativ qaydada işıqlandırılması istiqamətində “Olimpiya dünyası” qəzetinin gördüyü işlər əvəzsizdir. 20 il ərzində ölkədə idmanın bütün sahələrini işıqlandıran mətbuat orqanının fəaliyyətini yüksək qiymətləndiririk. Xüsusən olimpiadalarda yarışların yerindəcə izlənilməsi və ictimaiyyətə çatdırılması bu qəzeti xüsusilə önə çıxaran amillərdən biridir. Təbii ki, bütün bunların arxasında gərgin əmək, işə sevgiylə yanaşma və böyük zəhmət dayanır. Azərbaycan Güləş Federasiyası olaraq 20 yaşını qeyd edən “Olimpiya dünyası” qəzetinin bütün kollektivini təbrik edir və neçə-neçə yubileylər keçirmələrini arzulayırıq.

***Azərbaycan Güləş Federasiyası***

Milli Olimpiya Komitəsinin rəsmi orqanı olan “Olimpiya dünyası” qəzeti Azərbaycan idmanının təbliğatında daim mühüm rol oynayıb. 20 il əvvəl ilk sayı nəşr olunan qəzet böyük peşəkarlıq yolu keçib. İdmanımızın işıqlandırılmasında əsas mətbu orqanlardan sayılan qəzet bu illər ərzində çoxsaylı oxucuların sevimlisinə çevrilib. “Olimpiya dünyası” qəzetinin 20 illik yubileyi münasibəti ilə rəhbərliyinizi və yaradıcı kollektivinizi səmimi qəlbdən təbrik edirik. Sizə bu çətin və şərəfli yolda uğurlar arzulayırıq.

***Azərbaycan Cüdo Federasiyası***

Azərbaycan Boks Federasiyasının kollektivi adından “Olimpiya dünyası” qəzetini 20 illik yubileyi münasibətilə təbrik edirik. Milli Olimpiya Komitəsinin rəsmi orqanı olan nəşr sözün həqiqi mənasında ölkə idman mətbuatına yeni nəfəs gətirib. “Olimpiya dünyası”nın yarandığı gündən təkcə populyar növləri deyil, bütün idman növlərini diqqətdə saxlaması alqışalayiqdir. Bu o deməkdir ki, nəşr daha böyük kütlənin maarifləndirilməsində müstəsna rol oynayır. Həmçinin qələbə xəbərləri ilə yanaşı, maddi-texniki bazanın gücləndirilməsini gündəmə çevirməyinizi uğurlarınız sırasına əlavə etmək olar. Biz də boks ailəsi olaraq qəzetin hər bir sayını oxuyur, maraqlı rubrikalar altındakı yazıların əməkdaşlarımız arasında müzakirə olunduğunu fəxrlə deyə bilərək. “Olimpiya dünyası” yalnız yazıları ilə deyil, üslub və yenilikləri ilə də daim gündəmdə qalmağı bacarıb. Hazırda elektron KİV-lərin daha populyar olmasını nəzərə alsaq, qəzeti 20 il qoruyub saxlamaq heç də asan deyil. Təbii ki, bunda qəzetin rəhbərliyinin və kollektivin əməyi danılmazdır. 20 il tarix baxımından kiçik görünsə də, bir nəşr üçün böyük tarixdir. Qəzetdə Azərbaycanın idman nailiyyətləri, Olimpiya hərəkatı ilə bərabər 44 günlük Vətən Müharibəsindəki zəfərimiz haqqında da yazıların dərc edilməsindən böyük xoşbəxtlik ola bilməz. Bir daha boks ailəsi adından “Olimpiya dünyası”nın kollektivinə yaradıcılıq uğurları, qələbə xəbərlərinin bol olmasını arzu edirik.

***Azərbaycan Boks Federasiyası***

# “Olimpiya dünyası” - idmanımızın aynası

***“Olimpiya dünyası” qəzeti 20 il ərzində idmanın və Olimpiya Hərəkatının təbliği ilə yanaşı, həm də müxtəlif idman tədbirlərinin təşkilində fəal iştirak edir. Belə ki, 2003-cü ilin noyabrın 29-da Gəncə Olimpiya İdman Kompleksində “Olimpiya dünyası” qəzetinin təşkilatçılığı ilə karate-do üzrə “Gəncə kuboku” ənənəvi beynəlxalq turniri keçirilib. Bu, Gəncə Olimpiya İdman Kompleksində təşkil olunan sayca ikinci beynəlxalq yarış idi. Qeyd edək ki, sonuncu yarışın keçirilməsinə Milli Olimpiya Komitəsi və Azərbaycan Karate-do Federasiyaları Assosiasiyası yaxından kömək edib. Həmin ilin əvvəlində isə burada Rusiya və Azərbaycan voleybolçularının yoldaşlıq görüşü təşkil olunub.***



## “Olimpiya dünyası” karate-do üzrə beynəlxalq “Gəncə kuboku” turnirinin təşkilatçısı olub

Turnirdə Gəncə, Bərdə, Ağcabədi, Şəmkir, Tovuz rayonlarını, Gəncədə fəaliyyət göstərən “Metallurq”, “Toxuculuq”, “Dinamo”, “Təhsil” idman mərkəz və klublarını, Gəncə Olimpiya İdman Kompleksini (GOİK) təmsil edən idmançılarla yanaşı, Gürcüstan karateçiləri də iki komanda ilə qüvvələrini sınayıblar. Ümumilikdə, yarışda 100-ə yaxın karateçi iştirak edib. Həm yerli, həm də qonşu Gürcüstan komandalarının tərkibində kifayət qədər nüfuzlu və titullu karateçilər təmsil olunublar. Belə ki, gürcülərin heyətində dünya və qitə çempionatlarının qalibi olmuş, Dünya kubokuna yiyələnmiş 3 karateçi çıxış edib. Yarışda ölkəmizi təmsil edən ayrı-ayrı komandalarda da karate üzrə Avropa çempionu, dünya birinciliyinin mükafatçısı və əsas yığma komandamızın digər üzvləri qələbə uğrunda mübarizə aparıblar. Yarışları beynəlxalq dərəcəli hakimlər Sahib Rzayev və Mircabbar Seyidov idarə ediblər.

16-17 yaşlıların mübarizəsində final görüşündə Renat Saitov Niyazi Əliyevə qalib gəlib. Beləliklə, Renat Saitov (GOİK) 1-ci, Niyazi Əliyev (Gəncə) 2-ci, Vüqar Rubəxşi (GOİK) və Babək Həmidov (Gəncə) 3-cü yerlərə layiq görülüblər.

Çəkisi 70 kiloqrama qədər olan karateçilərin yarışında Gəncə Olimpiya İdman Kompleksinin idmançısı Arif Məmmədov Avropa və dünya çempionatlarının mükafatçısı tanınmış karateçi Rafael Ağayevə qalib gələrək çempion adını qazanıb. Bu çəki dərəcəsində üçüncü yerlərə Gəncə



“Təhsil” İdman Mərkəzinin nümayəndəsi Yusif İsmayılzadə və Ağcabədi təmsilçisi Pərviz Bayramov layiq görülüblər.

+70 kq çəki dərəcəsində yarımfinal görüşlərində Seyran Bağırov (GOİK) və Aleko Jamuraşvili (Gürcüstan) qalib gələrək, bürünc medal qazanıblar. Finalda GOİK idmançısı Asif Bağırovla Fuad Allahverdiyev (Gəncə “Dinamo”) üz-üzə gəliblər və gərgin keçən döyüş ikincinin qələbəsi ilə başa çatıb.

Şəxsi yarışlar bitdikdən sonra 10 komanda arasında komanda yarışları başlayıb. Yarımfinalda A yarımqrupunda GOİK ilə Gürcüstan -1, B yarımqrupunda isə Gəncə komandası ilə “Təhsil” İM-in komandası qarşılaşıblar. Birinci yarımqrupdan GOİK, ikincidən isə Gəncə komandaları finala yüksəliblər. Bu komandaların final görüşündə isə GOİK daha güclü olduğunu sübut edərək, “Gəncə kuboku”na sahib olub.

Yarışlar başa çatdıqdan sonra mükafatlandırma mərasimi keçirilib. Qaliblərə diplom, medal və qiymətli hədiyyələr verilib. Turnirin “Ən texnikalı idmançısı” mükafatına Vüqar Rubəxşi (GOİK) və Beka Araxamiya (Gürcüstan) layiq görülüblər.

Azərbaycan Karate-do Federasiyaları Assosiasiyası, Azərbaycan Kontakt Karate-do Federasiyası, Gəncə Şəhər Gənclər, İdman və Turizm Baş İdarəsi turnirdə “Fəal iştirakına görə” diplomu ilə mükafatlandırılıblar.

Gürcüstan komandasının rəhbərinə də turnirin xüsusi mükafatı verilib.

## Təşkilatçısı olduğumuz futzal yarışı uzun illərdir yaddaşlardan silinmir

“Olimpiya dünyası” qəzetinin təşkilatçılığı ilə keçirilən növbəti yarışlardan biri də KİV nümayəndələri arasında “Olimpiya dünyası” qəzetinin “İdman” qəzeti ilə birgə təşkil etdiyi futzal yarışı olub. 2003-cü ilin aprelin 5-dən mayın 3-dək davam edən yarışda 14 komanda qüvvəsini sınayıb. Onlardan 11-i mətbuatı, 2-si elektron KİV-i, 1-i isə mətbuat yayımı firmasını təmsil edib.

Yarışlar dörd qrup üzrə keçirilib. A və B qrupunda 4, C və D qrupunda isə 3 komanda mübarizə aparıb. A qrupunda “Olimpiya dünyası”, “Futbol +”, “Həftə içi”, “Super market”, B qrupunda isə “Lider”, “Çempion” və “Politika” komandaları yer alıb. Turnirin C qrupunda “Jurnalist”, “İdman” FK, “Risk”, “X - press - Elita” komandaları 1/4 finala vəsiqə qazanmaq uğrunda mübarizə aparıblar. “Telefortuna”, “Üç nöqtə” və “Azadlıq” komandaları isə D qrupunda növbəti mərhələyə yüksəlmək üçün üz-üzə gəlib. Hər qrupda mübarizə aparan, 1 və 2-ci yerləri tutan komandalar 1/4 finala vəsiqə qazanıblar. Hər həftənin şənbə və bazar günləri təşkil olunan yarışlar 1/4 final mərhələsindən sonra “uduzan çıxır” sistemi ilə keçirilib. Yarışları tanınmış hakimlər Azad Hüseynov (o, bir neçə il ərzində futzal üzrə FİFA hakimi olub, bir müddət əvvəl Polşada keçirilən rəsmi beynəlxalq turnirin oyunlarını idarə edib) və Əvəz Şıxıyev idarə ediblər.

Qrup mərhələsindəki nəticələrə əsasən, “Futbol+” və “Həftə içi” komandaları A qrupunda ilk iki yeri tutaraq 1/4 finala vəsiqə qazanıblar. “Olimpiya dünyası” komandası isə 3 xal toplayaraq qrupda 3-cü yeri tutub. B qrupunda isə “Lider” və “Çempion” komandaları ilk iki yeri tutaraq növbəti mərhələyə yüksəliblər. “Jurnalist” və “İdman” C, “Telefortuna” və “Üç nöqtə” komandaları isə D qrupunun qalibləri kimi adlarını 1/4 finala yazdırıblar. Bu mərhələnin ilk oyunu “Futbol+” və “İdman” komandaları arasında olub. Maraqlı mübarizə şəraitində keçən görüşdə “Futbol+” komandası 6:3 hesabı ilə qalib gələrək adını yarımfinalçılar siyahısına yazdırıb. 1/4 final mərhələsinin növbəti oyununda “Jurnalist”və “Həftə içi” komandaları qarşılaşıblar. Oyunda böyükhesablı qələbəyə sevinən “Həftə içi” kollektivi adını yarımfinala yazdıran ikinci komanda olub. 1/4 final mərhələsinin növbəti oyunu “Lider” və “Üç nöqtə” komandaları arasında təşkil olunub. Görüşün əsas vaxtı 1:1 hesabı ilə başa çatdığından qalibi müəyyənləşdirmək üçün penalti zərbələrinə ehtiyac duyulub. Penalti zərbələrini daha dəqiq yerinə yetirən “Üç nəqtə” komandası 3:2 hesabı ilə qalib gəlsə də, yarımfinala yüksələ bilməyib. Buna səbəb komandanın heyətində peşəkar futzalçının çıxış etməsinin təsdiqlənməsi olub. Bu səbəbdən də “Üç nöqtə” komandasına texniki məğlubiyyət verilib. Beləliklə, “Lider” komandası yarımfinala yüksəlib. Bu



mərhələnin son oyununda isə “Telefortuna” “Çempion” komandasına 2:0 hesabı ilə qalib gələrək yarımfinala adlayıb. Turnirin yarımfinal mərhələsində “Lider” “Futbol+” komandasına, “Telefortuna” isə “Həftə içi”nə 3:1 hesabı ilə qalib gələrək finalda bir-birlərinə rəqib olublar. Final görüşündə isə “Lider”təmsilçiləri “Telefortuna”dan üstün olub - 2:1 Mükafatlandırma mərasimində turnirin “Ən məhsuldar oyunçusu”, “Ən yaxşı oyunçu”, “Ən yaxşı qapıçı” adlarına layiq görülən iştirakçılar diplom və hədiyyələrlə təltif olunublar. Sonda Əli Rəhmanov “Neftçi” veteran futbolçuları adından yarışın təşkilatçılarına kubok bağışlayıb.

## Təbriklər

“Olimpiya dünyası” qəzeti Azərbaycanın idman mətbuatında xüsusi mövqeyə malikdir. 20 illik yubileyini qeyd edən qəzet fəaliyyət göstərdiyi bu dövr ərzində idmançılarımızın əldə etdikləri nailiyyətləri Azərbaycan idmansevərlərinin diqqətinə çatdırmaqla yanaşı, idman tariximizin etibarlı mənbə rolunu da öz üzərinə götürüb. “Olimpiya dünyası” qəzeti Azərbaycanda idmanın və Olimpiya hərəkatının geniş vüsət almağa başladığı dövrdə başlayıb və ölkəmizin idman həyatının aynası olub. Qəzet təkcə idmanın təbliğatında deyil, eyni zamanda idman jurnalistikasının inkişafında, bədən tərbiyəsinin kütləviləşməsində xüsusi rol oynayıb. İnanıraq ki, artıq 20 illik yubileyini qeyd edən qəzet bundan sonra da ölkəmizdə idman təbliği funksiyanı yüksək səviyyədə davam etdirəcək. Yubiley münasibətilə qəzetin kollektivini təbrik edir, yeni-yeni qələbələr xəbərini çatdırmalarını arzu edirəm.

***Elxan Məmmədov,***
***AFFA-nın icraçı vitse-prezidenti***

Bakı şəhər Gənclər və İdman Baş İdarəsi paytaxt gəncləri və idman ictimaiyyəti adından “Olimpiya dünyası”nın 20 illik yubileyi münasibətilə qəzetin rəhbərliyini və bütün əməkdaşlarını səmimi qəlbdən təbrik edir və fəaliyyətinizdə uğurlar arzulayır.

1997-ci ildə cənab İlham Əliyev Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra ölkəmizdə idman daha sürətlə inkişaf etməyə başladı. Belə bir vaxtda idman sahəsində əldə olunmuş nailiyyətləri işıqlandırmaq və Olimpiya hərəkatını təbliğ etmək üçün yeni bir nəşrə ehtiyac duyulurdu. Məhz belə bir vaxtda “Olimpiya dünyası” qəzeti təsis edildi. 2001-ci il noyabrın 27-də qəzetin ilk sayının işıq üzü gördüyü gündən bu günə qədər bu qəzet idman və kütləvi bədən tərbiyəsində gedən prosesləri, baş verən hadisələri diqqətlə izləməklə yanaşı, Azərbaycanda idmanın və Olimpiya hərəkatının təbliğinə və inkişafına yorulmadan öz töhfələrini vermişdir. İdman dövlət siyasətinin mühüm tərkib hissəsidir. Bu siyasətin təbliği müstəsna məsuliyyətli məsələdir. Bu gün böyük oxucu kütləsi qəzetinizin hər bir sayını maraqla oxuyur, Azərbaycanın idman ictimaiyyəti tərəfindən həvəslə qarşılanır. Qəzet həmçinin jurnalistikamızın ənənələrinə sadiqliyi ilə də öncüllərdəndir. Bu isə “Olimpiya dünyası”nın rəhbərliyinin öz işinə məsuliyyətlə yanaşmasının, formalaşdırdığı işgüzar kollektivin də eyni keyfiyyətlərin daşıyıcısı olduğunun bariz göstəricisidir.

Bir daha bu əlamətdar hadisə münasibəti ilə “Olimpiya dünyası”nı təbrik edir, fəaliyyətinizdə uğurlar arzulayırıq.

***Bakı şəhər Gənclər və İdman Baş İdarəsi***

Ölkəmizdə idman sahəsində ixtisaslaşmış mətbu orqanlar arasında özünəməxsus yeri və dəsti-xətti olan “Olimpiya dünyası” qəzeti 20 illik fəaliyyətində böyük uğurlar qazanıb. Qəzet idmanın kütləviliyini təbliğ etməklə yanaşı, təmiz idman dəyərlərinin qorunmasını, idmanda ədalət prinsipini, dürüst idmançıların təbliğini də diqqətdə saxlayır. “Olimpiya dünyası” qəzeti idman sahəsində baş verən hadisələr və yeniliklərlə bağlı xəbərləri ilə bərabər peşəkar araşdırmaları ilə də geniş oxucu kütləsinin rəğbətini qazanıb. Bu mətbu orqan eyni zamanda idman qurumları ilə səmərəli əmkdaşlıq edir. Daim bizimlə sıx əməkdaşlıq edərək antidopinq təbliğatına töhfə verdiyinə görə də “Olimpiya dünyası” qəzetinin kollektivinə xüsusi təşəkkür edirəm. Qəzetin 20 illik yubileyi münasibəti ilə bütün kollektivi ürəkdən təbrik edir, gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

***Şəfəq Hüseynli,***
***Azərbaycan Milli Antidopinq Agentliyinin direktoru***

“Olimpiya dünyası” qəzetinin baş redaktoru,
Əməkdar jurnalist Murad Fərzəliyevə:

Dəyərli həmkarım!

İlk gündən rəhbərlik etdiyiniz “Olimpiya dünyası” qəzetinin 20 illiyini qeyd etdiyimiz bu günlərdə redaksiyanızın uğurlarına sevinirik. Ötən 20 il ərzində qəzetin keçdiyi yol idmanımızın olimpiya zirvəsinə yüksəlişinə şahidlik edib, idmançılarımızın uğurları barədə xəbərləri öz oxucularına çatdırıb, olimpizmin güzgüsünə çevrilib bilib.

“Olimpiya dünyası” qəzeti ölkə mediasında özünəməxsus dəst-xətti olan, maraqla oxunan və idman ictimaiyyətinin sevimlisinə çevrilən mətbuat orqanıdır.

20 illik yubileyiniz münasibətilə Sizi və kollektivinizi təbrik edir, fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram!

***Qabil Mehdiyev,***
***Əməkdar jurnalist, Gənclər və İdman Nazirliyinin mətbuat katibi, Azərbaycan İdman Jurnalistləri Federasiyasının prezidenti***

# “Olimpiya dünyası” - idmanımızın aynası

## Sağlam həyat tərzinə xidmət edən tədbirlər



“Olimpiya dünyası” qəzeti bir sıra ölkədaxili və beynəlxalq miqyaslı yarışların təşkilatçısı olaraq, insanların sağlamlıqlarının qorunmasında, onların asudə vaxtlarının təşkilində önəmli rol oynayan bədən tərbiyəsi və idmanın cəzaçəkmə müəssisələrində də təbliğinə xüsusi diqqət yetirib. Milli Olimpiya Komitəsi ilə Ədliyyə Nazirliyinin Penitensiar Xidməti arasında “Cəzaçəkmə müəssisələrində məhkumların asudə vaxtlarının səmərəli keçirilməsi, idmana maraqlarının artırılması və vətənpərvərlik ruhunda tərbiyəsi məqsədilə birgə görüləcək işlərə dair” müqavilə imzalanmışdır. Bu müqavilədə əksini tapan tədbirlər planına əsasən ayrı-ayrı cəzaçəkmə müəssisələrində görüşlər təşkil edilmişdir. Belə tədbirlərdə tanınmış idmançılarımız və idman rəsmiləri məhbuslarla görüşərək, onlara mənəvi dəstək vermişlər.

* * *

“Olimpiya dünyası” qəzetinin 5 illik yubileyi ərəfəsində - 2006-cı ildə ilk belə tədbir Yetkinlik Yaşına Çatmayanların Tərbiyə Müəssisəsində keçirilib. Noyabrın 23-də tərbiyə müəssisəsinin akt zalında “Olimpiya dünyası” qəzetinin kollektivi və bir sıra KİV nümayəndələrinin iştirakı ilə məhkum uşaqlarla görüş təşkil olunub. Tədbir çərçivəsində stolüstü tennis yarışları keçirilib. Turnirin qalibləri “Olimpiya dünyası”nın qiymətli hədiyyələri, diplomlar və medallarla təltif olunublar.

* * *

Növbəti tədbir 2007-ci il martın 5-də “Olimpiya dünyası” ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə



təşkilatçılığı ilə 4 saylı Cəzaçəkmə Müəssisəsində təşkil edilib. 8 Mart - Beynəlxalq Qadınlar Günü ərəfəsində belə bir tədbirin keçirilməsində əsas məqsəd azadlıqdan məhrumetmə ilə bağlı yaranmış gərginliyi aradan qaldırmaq, məhbusların psixoloji durumunu sabit saxlamaq və onların asudə vaxtının maraqlı və səmərəli təşkilinə kömək göstərmək idi. Cəzaçəkmə müəssisəsində voleybol üzrə yarış keçirilib. Qaliblərə və daha əlli məhbus qadına hədiyyələr təqdim olunub. Tədbir zamanı həmçinin Olimpiya, dünya və Avropa çempionları ilə məhbusların görüşü də keçirilib. Milli Olimpiya Komitəsi tərəfindən penitensiar xidmətin cəzaçəkmə müəssisələrinin kitabxanalarına MOK-un nəşrlərindən nümunələr və bu müəssisənin yeni açılmış trenajor zalına idman velosipedi verilib.

* * *

Ənənəsinə sadiq qalan “Olimpiya dünyası” qəzeti Azərbaycan Mətbuat Şurası ilə birgə 2008-ci il oktyabrın 8-də Yetkinlik Yaşına Çatmayanların Tərbiyə Müəssisəsinin akt zalında bir sıra KİV nümayəndələrinin iştirakı ilə tədbir keçirib. Tədbir çərçivəsində stolüstü tennis yarışı keçirilib. Yarışda Səbail rayonunun 236 saylı orta məktəbin komandası müəssisənin tennisçiləri ilə görüşüblər. Yekun nəticələrə görə 236 saylı orta məktəbin komandası birinci, cəzaçəkmə müəssisənin komandası ikinci yeri tutub. Qalib komandalara diplom və medallar təqdim edilib.

* * *

Həmin il noyabrın 19-da qəzetimiz 2 saylı Cəzaçəkmə Müəssisəsində daha bir idman tədbiri həyata keçirib. Tədbirdə futbolumuzun əfsanəsi Ələkbər Məmmədov, Olimpiya Oyunlarının qalib və mükafatçıları iştirak ediblər. 2 saylı cəzaçəkmə müəssisənin fəaliyyətində yaxından iştirak edən məhkumlar “Olimpiya dünyası” qəzeti tərəfindən qiymətli hədiyyələrlə təltif ediliblər.

Ardınca məhkumlarla jurnalistlər arasında şahmat yarışı keçirilib. Yarışın yekununa əsasən, qalib adını 2 saylı Cəzaçəkmə Müəssisəsinin təmsilçiləri qazanıblar.

* * *

Növbəti belə tədbir 2009-cu il iyunun 11-də 15 saylı Cəzaçəkmə Müəssisəsində keçirilib. Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, ədliyyə nazirinin müavini, ədliyyə general-leytenantı Nazim Ələkbərov, Olimpiya çempionlarımız və mükafatçılarımız, ATƏT-in Bakı ofisinin və Avropa Şurasının ölkəmizdəki nümayəndələri iştirak ediblər. Həmin gün 15 saylı cəzaçəkmə müəssisəsində idman zalı, kompüter otağı və ibadət otaqları məhkumların istifadəsinə verilib. Tədbir iştirakçıları stolüstü tennis, bilyard zalı həmçinin güləş, boks və digər idman növləri ilə məşğul olmaq üçün yaradılan şəraitlə tanış olublar. MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə Milli Olimpiya Komitəsi tərəfindən idman zalına trenajor hədiyyə edib, Azərbaycanın idman tarixindən bəhs edən çoxsaylı kitablar, jurnal və qəzetlər Penitensiar Xidmətin kitabxanaları üçün təqdim olunub.

* * *

2010-cu il aprel ayının 16-da qəzetimizin təşkilatçılığı ilə 15 saylı Cəzaçəkmə Müəssisəsində azadlıqdan müvəqqəti məhrum edilənlərlə idman jurnalistləri arasında növbəti şahmat turniri keçirilib. Hər komandadan 10 nəfərin iştirak etdiyi yarışın hakimi Fikrət Sideifzadə olub. Maraqlı mübarizə şəraitində keçən yarış Cəzaçəkmə Müəssisəsinin komandasının 7:3 hesablı qələbəsi ilə başa çatıb. Yarış başa çatdıqdan sonra qalib komandanın hər bir üzvünə diplom və hədiyyə təqdim edilib.



* * *

2010-cu il oktyabrın 4-də Milli Olimpiya Komitəsi və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi ilə birgə 6 saylı cəzaçəkmə müəssisəsində idman jurnalistləri ilə azadlıqdan müvəqqəti məhrum edilmiş məhkumlar arasında breyn-rinq intellektual yarışı keçirilib. Jurnalistlərlə məhkumlar arasında keçirilən yarışda heyətində 5 nəfər olmaqla 7 komanda iştirak edib. Turnirin qalibi finalda “Kainat” komandasını məğlub edən “Kəpəz” kollektivi olub. İlk üçlükdə yer alan komandaların hər birinə Milli Olimpiya Komitəsi, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən diplom və qiymətli hədiyyələr təqdim edilib.

* * *

Milli Olimpiya Komitəsi ilə Ədliyyə Nazirliyinin Penitensiar Xidməti arasında bağlanmış müqaviləyə uyğun olaraq, növbəti tədbir 2011-ci il aprelin 26-da 9 saylı Cəzaçəkmə Müəssisəsində olub. Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin rəisi Mədət Quliyev, Olimpiya, dünya, Avropa çempionları və mükafatçıları, KİV nümayəndələri iştirak ediblər.

“Neftçi” futbol klubunun veteranlardan ibarət komandası ilə məhkumlardan ibarət komanda arasında keçirilən yoldaşlıq görüşü tədbiri daha maraqlı edib. Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə qalib komandaya MOK-un kubokunu təqdim edib. 9 saylı cəzaçəkmə müəssisəsinin komandasına isə AFFA tərəfindən futbol topları hədiyyə edilib.

* * *

2013-cü il aprelin 2-də 4 saylı cəzaçəkmə müəssisəsində də məhkumlar arasında stolüstü tennis üzrə yarış keçirilib. Stolüstü Tennis Federasiyasının məşqçisi, idman ustası Qulu Quliyevin idarə etdiyi yarışda 15 nəfər məhkum qalib adı uğrunda mübarizə aparıb. Yarışın qaliblərinə diplom və hədiyyələr təqdim olunub.

* * *

Elə həmin il iyunun 28-də 2 saylı cəzaçəkmə müəssisəsində azadlıqdan müvəqqəti məhrum edilmiş məhkumlar arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibəti ilə breyn-rinq intellektual yarışı keçirilib.

Gərgin keçən bilik yarışmasında qalib gələn komandalar diplomla mükafatlandırılıblar.

* * *

2013-cü il iyulun 30-dan avqustun 2-dək 15 saylı cəzaçəkmə müəssisəsində mini-futbol turniri təşkil olunub. Turnir Ədliyyə Nazirliyinin yaranmasının 95 illiyinə həsr olunub. Yarış 1, 6, 10 və 15 saylı cəzaçəkmə müəəsisələrinin əməkdaşları arasında təşkil olunub. Final görüşündə 1 saylı cəzaçəkmə müəəsisəsinin komandası birinci yerə layiq görülüb. Qaliblər təşkilatçılar tərəfindən diplomlar, xatirə hədiyyələri və kubokla mükafatlandırılıblar.

* * *

2013-cü il sentyabrın 18-də Milli Olimpiya Komitəsi və Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin birgə layihəsi əsasında 1 saylı Cəzaçəkmə Müəssisəsində mini futbol turniri keçirilib.

Yeni mövsümün başlanmasına həsr olunan turnirdə 1 saylı Cəzaçəkmə Müəssisəsinin 8 komandası qalib adı uğrunda mübarizə aparıb. Turnirin finalında 2-ci və 7-ci dəstənin komandaları münasibətlərinə aydınlıq gətiriblər. Görüşdə rəqibinə 8:5 hesabı ilə qalib gələn 2-ci dəstə komandası çempion adını qazanıb. Qaliblərə diplomlar və xatirə hədiyyələri verilib.

## Təbriklər

Azərbaycan idman ölkəsidir. Hər il onlarla, yüzlərlə idmançımız beynəlxalq yarışlarda qələbələr qazanaraq bayrağımızı yüksəldir, himnimizin səslənməsinə nail olurlar. Onlar mübarizə meydanlarında uğurlar qazanmaqla Azərbaycanın adını dünyaya tanıdırsa, media nümayəndələrimiz də öz fəaliyyətlərində böyük təbliğat işi apararaq, bu işə dəstək olurlar. Bu baxımdan, “Olimpiya dünyası” qəzetinin rolu danılmazdır.

2001-ci ilin noyabr ayının 27-də ilk sayı işıq üzü görən “Olimpiya dünyası” nəşri Azərbaycan Milli Olimpiya Komitəsinin rəsmi mətbuat orqanı olaraq, öz səmərəli, çevik və peşəkar fəaliyyəti nəticəsində Azərbaycanın ən çox oxunan idman qəzetlərindən birinə çevrilməyi bacarıb. Qəzet öz səhifələrində Milli Olimpiya Komitəsinin, AOK və BOK-un işindəki yeniliklərə, həm ölkədaxili, həm də beynəlxalq aləmdə baş verən idman hadisələrinə, ölkə atletlərinin beynəlxalq yarışlardakı çıxışlarına geniş yer verir, idmanın inkişafında dəyərli xidmətləri olanlar, eləcə də tanınmış məşqçi və idmançılar haqqında maraqlı materiallara çap edir.

20 illik yubileyini qeyd edən qəzetin kollektivi Azərbaycanda idmanın, Olimpiya hərəkatının təbliği ilə yanaşı, ölkədə idman jurnalistikasının formalaşmasında mühüm rol oynayır. Təsadüfi deyil ki, həm qəzet özü, həm də redaksiya əməkdaşları bir çox mükafatlara layiq görülüblər.

“Olimpiya dünyası” qəzeti ağır atletika idman növündə baş verən hadisələri, uğurlarımızı daima operativ və geniş işıqlandırıb. Mütəmadi müsahibə və açıqlamalar, analitik yazılar, xəbərlər vasitəsilə təbliğat aparan bu nəşrin əməyini qeyd etmək lazımdır. “Olimpiya dünyası” qəzeti ölkə ağır atletikasının dəyərli media tərəfdaşı və dostudur. Biz hər sayı diqqətlə oxuyur, heç bir məqamı diqqətdən qaçırmamağa çalışırıq.

Böyük dəyər verdiyimiz “Olimpiya dünyası” qəzetinin rəhbərliyi və kollektivini 20 yaşı münasibətilə təbrik edir, fəaliyyətinizdə uğurlar arzulayırıq. Əminik ki, siz bundan sonra da zirvələri fəth etməkdə davam edəcək, Azərbaycan idmanının ən böyük uğurlarını işıqlandıracaqsınız. Bir daha təbriklər!

***Azərbaycan Ağır Atletika Federasiyası***

İyirmi il əvvəl Milli Olimpiya Komitəsinin rəsmi mətbuat orqanı olan “Olimpiya dünyası “ qəzetinin ilk sayı işıq üzü gördü. Bu münasibətlə qəzetin rəhbərliyini və bütün əməkdaşlarını Azərbaycan Voleybol Federasiyasının rəhbərliyi və voleybol ictimaiyyəti adından ürəkdən təbrik edirik.

2001-ci ilin noyabr ayında qəzetin ilk sayının işıq üzü gördüyü gündən bu günə qədər bu qəzet idman və Olimpiya hərəkatı sahəsində gedən prosesləri, baş verən hadisələri diqqətlə izləməklə yanaşı, ölkədə keçirilən beynəlxalq yarışlar, Olimpiya hərəkatı kimi məsələlərə həssaslıqla yanaşmışdır. Bu gün boyük oxucu kütləsi qəzetinizin demək olar ki, hər bir sayını maraqla oxuyur.

Uzun illərdir ki, Azərbaycan Voleybol Federasiyası və “Olimpiya dünyası” qəzeti arasında sıx əməkdaşlıq əlaqələri qurulub. Belə ki, tərəfimizdən keçirilən bütün tədbirlər, yarışlar qəzetinizdə geniş işıqlandırılır.

Qəzetin rəhbərliyini və kollektivini bir daha 20 illik yubiley münasibəti ilə təbrik edir, fəaliyyətinizdə uğurlar arzulayırıq.

***Azərbaycan Voleybol Federasiyası***

“Olimpiya dünyası” qəzetinin redaksiyasına

Əziz “Olimpiya dünyası” qəzetinin heyəti,

Sizi qəzetinizin 20 yaşı - yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir və fəaliyyətinizdə uğurlar arzulayıram. Müstəqil Azərbaycan idman mətbuatının keçdiyi yolu xarakterizə edərkən ağıla gələn ilk qəzetlərdən biri məhz “Olimpiya dünyası”dır. Olimpiya hərəkatının bütün dövrlərində gördüyünüz işlər təqdirəlayiqdir. Danılmaz faktdır ki, yarandığınız ilk vaxtdan qəzetiniz ölkə idmanında mühüm rol oynayıb. Ürəkdən inanırıq ki, 20 ildə olduğu kimi, bundan sonra da qəzetiniz xalqımızı müxtəlif yarışlardan, Olimpiya Oyunlarından operativ məlumatlar verməklə sevindirəcək. Bütün əməkdaşlarınızı Peşəkar Futbol Liqası adından təbrik edir və uzun illər fəaliyyət göstərməyinizi arzu edirəm.

***Ramin Musayev,***
***Peşəkar Futbol Liqasının prezidenti***



## V İslam Həmrəyliyi Oyunlarına hazırlıq prosesi ilə bağlı müzakirələr aparılıb

Türkiyənin Konya şəhərində V İslam Həmrəyliyi Oyunlarına hazırlıqla bağlı iclas keçirilib. İclasda İslam Həmrəyliyi İdman Federasiyasının (İHİF) birinci vitse-prezidenti, qurumun Nəzarət və Koordinasiya Komitəsinin rəhbəri Hamad Kalkaba Malboum, İHİF-in Texniki işlər üzrə başçısı Əşrəf Dahrouq, Tunis Milli Olimpiya Komitəsinin sabiq prezidenti Mohommed Adel Zahra, Beynəlxalq Kamandan Oxatma Federasiyasının vitse-prezidenti Kazi Racib Uddin Çapol, Türkiyənin gənclər və idman nazirinin müavini Halis Yunus Ərsöz, Konya Böyükşəhər Bələdiyyəsinin başqanı Uğur İbrahim Altay, Türkiyə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Nihat Usta və başqaları iştirak ediblər. Milli Məclisin deputatı Könül Nurullayeva İslam Həmrəyliyi İdman Federasiyasının (İHİF) İcraiyyə Şurasının, həmçinin İHİF-in Nəzarət və Koordinasiya Komitəsinin üzvü kimi həmin toplantıda iştirak edib. K.Nurullayeva Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunları ilə bağlı təcrübələrini bölüşüb, Konyadakı Oyunların uğurlu təşkili istiqamətində təkliflərini irəli sürüb.

Görüş zamanı yarışlara son hazırlıq işləri, yarışların keçiriləcəyi məkanlarla bağlı hazırkı vəziyyət və digər məsələlər müzakirə olunub. Oyunların ümumi reqlament və texniki kitabçasının yekun versiyası, talismanı, 25 idman növü üzrə yarışların proqramı, Konya 2021 Təşkilat Komitəsinin fəaliyyət planı, marketinq və televiziya yayımı, bu kimi digər mühüm məsələlər müzakirə edilib. Eyni zamanda, qonaqlara gələn ilin avqustun 9-18-də keçirilməsi planlaşdırılan V İslam Oyunlarının rəsmi internet saytı və sosial media hesablarının yaxın günlərdə fəaliyyətə başlayacağı barədə məlumat verilib.

Sonra Konyada aparılan hazırlıq işləri ilə yaxından tanış olmaq məqsədilə yeni salınan Atletlər kəndi, həmçinin Konya Böyükşəhər Bələdiyyə Stadionu, Səlcuq Universiteti 15 İyul Stadionu, Səlcuq Universiteti 19 May İdman Salonu, Ələddin İdman Salonu, Konya Texniki Universitetinin İdman Salonu, Səlcuqlu Bələdiyyəsi İdman Salonu, "Cümhuriyyət" futbol meydanı, Karatay İdman və Konqres Mərkəzi, Atıcılıq sahəsi, "Saracoğlu" idman meydanı, Atletika sahəsi, Gimnastika salonu, Olimpiya Üzgüçülük Hovuzu, "Grand Millenium" Mərkəzi, Veledrom, Karatay Gənclik Mərkəzi, Səlçuqlu Konqres Mərkəzi daxil olmaqla, "Konya 2021" Oyunlarının keçiriləcəyi bir neçə məkana baxış keçirilib.

Qeyd edək ki, V İslam Həmrəyliyi Oyunlarında atletlər idmanın 25 növü üzrə mübarizə aparacaqlar.

# Olimpiya Güləş Mərkəzində ustad dərsləri keçirilib



Noyabrın 26-da Dünya Narkotiklə Mübarizə Aparan İdmançılar Federasiyasının Azərbaycan nümayəndəliyinin, "Olimpsport" jurnalının, "Olimpiya dünyası" qəzetinin və Azərbaycan Güləş Federasiyasının birgə təşkilatçılığı ilə tədbir keçirilib. "Olimpiya dünyası" qəzetinin 20 illik yubileyi münasibətilə Olimpiya Güləş Mərkəzində keçirilən tədbirdə ikiqat Olimpiya mükafatçısı, üçqat dünya və üçqat Avropa çempionu Hacı Əliyev yeniyetmə qız və oğlan güləşçilər üçün ustad dərsi keçib. Məşqçilər Əsgərxan Novruzov, Vahid Məmmədov, Yaşar Əliyev, Ağahüseyn Mustafayev, Namiq Quliyev və Elşad Allahverdiyevin də iştirak etdikləri hazırlıq prosesində yeniyetmə güləşçilərə müxtəlif fəndlərin icrası nəzəri və praktiki formada izah edilib.

Ustad dərslərini Azərbaycan Güləş Federasiyasının prezident əvəzi Namiq Əliyev, Milli Olimpiya Komitəsinin İdman İdarəsinin baş məsləhətçisi Nazir Rəhimov, "Olimpiya dünyası" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Murad Fərzəliyev, Dünya Narkotiklə Mübarizə Aparan İdmançılar Federasiyasının Azərbaycan nümayəndəliyinin rəhbəri Cavid Allahverdiyev, "Olimpiya dünyası" qəzetinin baş redaktorunun müavini, Əməkdar jurnalist Aslan Şirəliyev və Əməkdar məşqçi, "Olimpsport" jurnalının baş redaktoru Ramin Allahverdiyev də izləyiblər.

Tədbirin sonunda çıxış edən qonaqlar ustad dərslərinin yeniyetmə güləşçilərin karyerasında böyük təcrübə olacağına əminliyini ifadə ediblər.



# Təbriklər

Bu gün "Olimpiya dünyası" qəzetinin ilk nömrəsinin işıq üzü görməsindən 20 il keçir. Yarandığı gündən maraqlı rubrikaları və dolğun məlumatları ilə seçilən bu nəşr hər bir idmançının sevimli qəzetinə çevrilib. "Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin "Olimpiya dünyası" qəzeti ilə sıx əlaqələri var. Hər zaman cəmiyyətimizin idmançılarının əldə etdikləri nailiyyətləri daim diqqət mərkəzində saxlayırsınız. Bunun üçün sizə təşəkkürümü bildirirəm. 20 illik yubileyinizi təbrik edir, kollektivinizə uğurlar diləyirəm. İnanıram ki, idmançılarımızın ən sevimli qəzeti olaraq, ölkəmizdə idmanın və Olimpiya hərəkatının təbliğini böyük uğurla davam etdirəcəksiniz.

*Fazil Hadıbəyov,*
*"Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti*
*İctimai Birliyinin sədri*

Müstəqillik əldə edildikdən sonra hər bir sahədə olduğu kimi, idmanda da böyük yüksəliş dövrü başladı. Beynəlxalq miqyaslı yarışlarda əldə olunan nailiyyətlər günü gündən artdı. Azərbaycan atletləri iştirak etdikləri hər bir yarışda mükafatlar qazandılar. Dünya, Avropa və Olimpiya oyunlarında əldə olunan nailiyyətlər xalqımız sevindirdi. Əldə olunan nailiyyətlərin təbliğində KİV nümayəndələrinin rolunu xüsusi qeyd etməli olar. İdman qəzetləri arasında özünəməxsus dəsti-xətti olan "Olimpiya dünyası" bu işdə böyük pay sahibi oldu. 20 illik fəaliyyəti dövründə bu qəzet Azərbaycan oxucusuna əldə olunan nailiyyətlərlə bağlı məlumatlar çatdırıb. "Olimpiya dünyası" öz səmərəli fəaliyyəti ilə ölkəmizdə idmanın və Olimpiya hərəkatının təbliğinə xidmət edir.

Şübhəsiz ki, bu işdə peşəkar kollektivin xüsusi əməyi var. İnanırıq ki, Azərbaycanın idman uğurları artdıqca, "Olimpiya dünyası" qəzeti də bu nailiyyətləri bundan sonra da uzun illər boyu təbliğ etməkdə davam edəcək.

Qəzetin baş redaktoru başda olmaqla, bütün yaradıcı kollektivi təbrik edirəm. Arzu edirəm ki, qəzetiniz hər zaman belə maraqlı və yüksək səviyyədə nəşr olunsun.

*Cəfər Hümbətov,*
*Əməkdar bədən tərbiyəsi və idman xadimi,*
*Respublika Yüksək İdman Ustalığı*
*məktəbinin direktoru*

Azərbaycan Respublikası Milli Karate Federasiyası "Olimpiya dünyası" qəzetinin bütün kollektivini yubiley münasibətilə təbrik edir. Amma idman ictimaiyyətinin sevimlisi olan qəzet bu müddət ərzində ölkədə nüfuzlu və sanballı idman nəşri kimi özünü təsdiq edib.

Qəzetin jurnalistləri tərəfindən işıqlandırılan ölkənin idman həyatı və Beynəlxalq Olimpiya Hərəkatı haqqında məlumatlar oxucularda daim maraq doğurur. Federasiyamız üçün karate dünyasına yaxından diqqət yetirməyiniz xüsusilə dəyərlidir. Karateyə həsr olunmuş yüksək keyfiyyətli və dərin təhlili yazılara görə qəzetin kollektivinə ürəkdən təşəkkür edirik. Ümid edirəm ki, əməkdaşlığımız gələcəkdə də səmərəli olacaqdır.

Sizə yeni-yeni yaradıcılıq uğurları, firavanlıq və əlbəttə ki, çoxsaylı oxucular arzulayıram

*Yaşar Bəşirov,*
*Milli Karate Federasiyasının prezidenti*

Azərbaycan Milli Olimpiya Komitəsinin rəsmi orqanı olan "Olimpiya dünyası" qəzetinin yaranmasından 20 il ötür. Bu xoş fürsətdən istifadə edərək Respublika Olimpiya İdman Liseyinin rəhbərliyi adından Sizi və bütün işgüzar əməkdaşlarını səmimi qəlbdən təbrik edirik. 2001-ci il noyabrın 27-də qəzetin ilk sayının işıq üzü gördüyü gündən bu günə qədər, respublikamızın idman həyatını, kütləvi bədən tərbiyəsində gedən prosesləri, həm ölkə daxilində, həm də beynəlxalq aləmdə baş verən idman hadisələri haqqında maraqlı materialları dolğun əks etdirməklə qəzetiniz oxucuların rəğbətini qazanmışdır. Bir daha Sizi və bütün kollektiv üzvlərini Respublika Olimpiya İdman Liseyinin adından təbrik edir və xoş azrularımızı bildiririk.

*Vitali Rəhimov,*
*ROİL-in idman işləri üzrə direktor müavini*

Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsi "Olimpiya dünyası" qəzeti ilə uzun müddətdir davam edən sıx əlaqəni təqdirəlayiq hesab edir. Baş idarə tərəfindən keçirilən bütün tədbirləri qəzetinizdə işıqlandırdığınıza görə Sizə öz dərin təşəkkürümüzü bildiririk. Qəzetin 20 illik yubileyi münasibətilə dəyərli kollektivini təbrik edir, sizə işlərinizdə uğurlar arzu edirik.

*Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsi*

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49;
564-74-19